

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Biz bu qələbəni onlara borcluyuq"



11

# NAXÇIVAN:

## nefti, qazı olmasa da, günəşi var...




2


SƏS

№ 175 (6858)

27 sentyabr 2023-cü il.
Qiymәti 60 qәpik


# 27 sentyabrdan başlanan 44 günlük zəfər tariximiz!

İlham Əliyev:
"Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq"



4

## Ermənistanda mitinqlər və "rus agenti"




13

## Çoxalan dələduzluq, azalan insanlıq



15

## Siz...



14

## Gənclər niyə öz qismətini sosial şəbəkədə axtarır?



16

## Mədəkiçiltmə əməliyyatı hansı fəsadlara səbəb olur?



10

# NAXÇIVAN:

## nefti, qazı olmasa da, günəşi var...








Blokada vəziyyəti Qarabağın işğal tarixi ilə yaşıd olan Naxçıvan üç il öncə əzəli torpaqlarımızın azadlıq sevincini yaşadı. Böyük Zəfər Naxçıvanın üzünü güldürdü. Ermənilərin torpaqlarımızdan qovulması, Qarabağın anası Azərbaycana qovuşması Naxçıvanın da blokadasının yarılacağına bir ümid yeri açdı. 2020-ci ilin 10 noyabrında ağ bayraq qaldırıb təslim olduqlarını bəyan edən ermənilər kapitulyasiya aktına imza atmaqla üçtərəfli bəyanatla üzərlərinə götürdükləri öhdəlikləri tezliklə yerinə yetirəcəklərinə söz versələr də, lakin qonşumuzun kim olduğunu artır əsrlərdir ki, yaxşı bilirik... Hansı ki, Naxçıvanın da doğma Vətənə qovuşması həmin sənəddə xüsusi bənddə yer alır. Lakin onların bu öhdəlikləri də çox yaxın gələcəkdə yerinə yetirəcəkləri Naxçıvanın bol günəşində aydın görünür. 25 sentyabrda iki böyük türk liderin-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşünə ev sahibliyi edən Naxçıvanda dövlətimizin başçısının dediyi kimi: Naxçıvanın qazı, nefti olmasa da, günəşi var... Bu günəş isə qədim torpağın tək maddi deyil, həm də mənəvi nemətidir...

### Zəngəzurun işğalı Naxçıvanı Vətəndən ayrı saldı

Sentyabrın 25-də Naxçıvanda Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış etmişlər. Dövlətimizin başçısı çıxışı zamanı Naxçıvanla bağlı tarixi və dəyərli fikirlərini bildirərək demişdir: Naxçıvan Azərbaycanın qədim diyarıdır. Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Burada da şiddətli döyüşlər gedirdi və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə, - o zaman o, Naxçıvanın başçısı idi, - Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi. Ancaq o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvan faktiki olaraq mühasirədə idi. İşıq yox, qaz yox, qışlar da çox soyuq keçir və 15 il Naxçıvan qazsız yaşamışdır.

Bəli, 1919-cu ilin əvvəllərində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını və Naxçıvan Milli Komitəsini ləğv etdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərə inanaraq 23 noyabr 1919-cu ildə Ermənistanla bağlanmış müqavilənin şərtlərinə əsasən öz qoşunlarını Zəngəzurdan çıxardı. Bundan istifadə edən ermənilər Zəngəzuru tutdu və Naxçıvanın Azərbaycandan ayrı düşməsinin əsası qoyuldu. Zəngəzurun bir hissəsinin ermənilər tərəfindən işğal edilməsi Naxçıvan bölgəsinin blokadaya salınması, onun Azərbaycanın əsas hissəsi ilə əlaqələrinin kəsilməsi ilə nəticələndi.

Əzəli və tarixi Azərbaycan torpağı olan, hazırda indiki Ermənistanın cənub-şərqində yerləşən Zəngəzur ərazisi qədim zamanlardan Azərbaycan xalqına məxsus Göyçə gölü hövzəsini və Azərbaycan Respublikasının cənub-qərb hissəsini əhatə edir. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə sərhədlənən, qədim zamanlardan Azərbaycan ərazisində yaranan müxtəlif dövlətlərin tərkibində olan və əhali tərəfindən Zəngəzur mahalı kimi tanınan bu ərazinin bir hissəsi Xanlıqlar dövründə Qarabağ, bir hissəsi Naxçıvan, qalan hissəsi İrəvan xanlığının tərkibində olmuşdur. Mahal ərazisinə daxil olan torpaqlar el qaydası ilə Qarakilsə, Gorus, Qafan, Mehri, Zəngilan, Qubadlı, Laçın bölgələrinə bölünmüşdür. Şimali Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra digər Azərbaycan torpaqları kimi, əhalisi ancaq Azərbaycan türklərindən ibarət olan Zəngəzura da İrandan və Osmanlı imperiyasından çoxlu erməni köçürülmüş, bununla da ərazidə onların sayı süni surətdə artırılmışdır.

### 15 il Naxçıvan qazsız yaşamışdır

Dövlətimizin başçısının da vurğuladığı kimi, o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvan faktiki olaraq mühasirədə idi. İşıq yox, qaz yox, qışlar da çox soyuq keçir və 15 il Naxçıvan qazsız yaşamışdır.

Bəli, Naxçıvan kimi sərt kontinental iqlimə malik bir diyar üçün 15 il təbii qaz olmadan yaşamağın nə demək olduğunu yalnız naxçıvanlılar-blokadanın acısını yaşayanlar bilir. Artıq 1989-1990-cı illərdə Naxçıvanda blokada çoxdan başlamışdı. İki il ərzində ayrı-ayrı vaxtlarda qatarların işləməməsini, eletrik, qaz xətlərinin kəsilməsi günlərini ayrı-ayrılıqda hesablayanda bir il idi ki, Naxçıvan blokada şəraitində yaşayırdı. Elektrik enerjisinin, təbii qazın yoxluğu, qatarların işləməməsi bütün istehsal müəssisələrinin də fəaliyyətini dayanmasına səbəb olmuşdu. Artıq haqqında danışdığımız yollarda hərdənbir avtomobillər görünə bilirdi. Rayonlardan Naxçıvana marşrut avtobusları dayandırılmışdı. Çünki yanacaq yox idi. İnsanlar evlərində yandırmağa heç nə tapmırdı. Onlar soyuqdan donurdular. Bu, hələ blokadanın ilk ili idi. Bir azdan ərzaq qıtlığı, ümumiyyətlə yanacağın yoxluğu qarşısında dəhşətli bir həyat var idi.

*Ardı Səh. 3*



## ABŞ dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib

Sentyabrın 26-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı, erməni silahlı qüvvələrinə qarşı antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı 24 saatdan az müddətdə yekunlaşan antiterror tədbirləri zamanı yalnız hərbi obyektlərin hədəf alındığını, mülki əhaliyə zərər verilmədiyini diqqətə çatdırıb.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah prosesinin həyata keçirildiyi və onların Azərbaycan ərazisindən çıxarılması işinin həyata keçirildiyi ABŞ tərəfinə bildirilib. Son beş gün ərzində yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə edildiyi vurğulanıb.

Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələrinin və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsinin toplanmış silah və hərbi texnikaya baxış keçirdiyi qeyd olunub. Prezident İlham Əliyev Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin edilməsi məqsədilə hazırda müvafiq iş aparıldığını vurğulayıb.

Azərbaycan nümayəndələri ilə erməni sakinlərin nümayəndələri arasında reinteqrasiya istiqamətində dialoq aparıldığı, erməni sakinlərə Azərbaycan tərəfindən humanitar yardımlar göndərildiyi, ərazidə infrastrukturun bərpa edildiyi dövlət başçısı tərəfindən qeyd olunub.

Erməni sakinlərə yardımların göstərilməsi istiqamətində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əməkdaşlığın həyata keçirildiyi, ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə Azərbaycan tərəfinin hazır olduğu diqqətə çatdırılıb.

ABŞ dövlət katibi Antoni Blinken yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, bölgədə sabitliyin təmin edilməsinin, yerli ermənilərlə dialoqun vacib olduğunu bildirib.

# NAXÇIVAN:

## nefti, qazı olmasa da, günəşi var...

Əvvəli Səh. 2

Naxçıvan günü-gündən məhvə doğru gedirdi. Bir tərəfdən ermənilərlə bütün sərhədlərində, xüsusilə Sədərəkdə qanlı müharibələr gedir, bir tərəfdən region informasiya blokadasına məruz qalmışdı, digər tərəfdən isə aclıq, səfalət hökm sürürdü. Naxçıvan həmin dövrdə bu çətinlikləri naxçıvanlılarla birlikdə yaşayan, çıraq işığında fəaliyyət göstərən Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi "Taleyin ümidinə buraxılmış tənha ada"nı xatırladırdı.

Təbii qaz olmayan bir diyarda 15 ildə gördüklərimiz: insanlar soyuqdan donurdu. Onlar neçə-neçə körpəsini, yaşlı əzizlərini soyuğun gətirdiyi bəlalara qurban verirdi. Səhərin sübh çağı insanlar çörək növbələrinə getməli idilər, yoxsa bir gün ac qalardılar. Saatlarla buzun üzərində dayanıb çörək maşını gözləyən insanlar evlərinə ya əlidolu, ya da əliboş gəlirdi. Lakin evdə bir işartı tapa bilmirdilər ki, donmuş əl-ayaqlarını isidə, donunu aça bilsinlər. Uşaqlar "çörək" deyib ağlayırdı. "Şirin çay" deyib susmaq bilmirdi. Lakin nə çörək vardı, nə də bir qaşıq şəkər tozu, bir tikə qənd... Məktəblər, xəstəxanalar, kitabxanalar, iş yerləri soyuqdan sanki çığırırdı. İnsanların isə bu soyuq otaqlarda keçirdiyi saatları təsəvvür etmək məncə çox çətin olmaz... Naxçıvanlılar ata-babalarının əkdikləri bar ağaclarını ağlaya-ağlaya kəsib sobaya qoyurdular. Hansı ki, biləklərini kəssə idilər, ondan yaxşı idi. Meşələr, yol ətrafları təbiət qəbiristanlığına çevrilmişdi. Çünki insanlar yaşamaq uğrunda mübarizə aparırdı. Meşələrdə, yollarda, həyətlərdə nə ağac qaldı, nə bir odun parçası... Hər bir ağac kəsildikcə isə sanki bir nəfər dünyasını dəyişirdi. Bağ-bağat, təbiət sevgisi sonsuz olan naxçıvanlılar üçün bu, belə idi. Lakin düz 15 il bu çarəsizliklə üz-üzə qalmalı oldular: acı, əzab-əziyyət, səfalət, aclıq... Yalnız boz rəngdən ibarət həyat...













### Naxçıvana təbii qazın verilməsi üçün ikinci xətt

Dövlətimizin başçısı çıxışında 15 il təbii qazsız qalan Naxçıvan haqqında demişdir: Ancaq 2005-ci ildə İran İslam Respublikası ilə imzalanmış anlaşmaya görə, mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi təmin edilmişdir. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi isə ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq.

Qeyd edək ki, sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi keçirilib.

İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə, onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək.

Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

Beləliklə, 25 sentyabr Naxçıvanın taleyində günəş kimi doğdu. Bu qədim diyarın illər uzunu əzab-əziyyətlə üz-üzə qalan insanlarının rifahı üçün yeni bir layihə gerçəkləşdi. Yaxın gələcəkdə ikinci təbii qaz xətti də Naxçıvanın enerji təminatına dəstək olacaq. Naxçıvan isə Türkiyəyə bol günəşi hesabına əldə olunan elektrik enerjisi verə bilər. Dövlətimizin başçısının dediyi kimi: Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda, su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır.

### Naxçıvan deyiləndə Ümummilli Lider, Ümummilli Lider deyiləndə Naxçıvan...

Naxçıvan deyiləndə Ulu Öndərimiz, Ulu Öndərimizin adı çəkiləndə isə ilk olaraq Naxçıvan xatırlanır. Çünki Böyük Şəxsiyyətin sayəsində dövlətimizin müstəqilliyə gedən yolu Naxçıvandan başlandı. Ulu Öndərin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlməsi də Naxçıvandan başlandı. Eyni zamanda, Ulu Öndər blokadaya salınan naxçıvanlıların həyatda qalma, yaşama səbəbkarı oldu. Onlarla birlikdə blokada şəraitində-soyuq otaqda yaşadı, qaranlıqda qaldı, çıraq işığında çalışdı...

Bütün bu səbəblərdən də regionun yaxın və uzaq keçmişinə çox yaxşı bələd olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda çıxışı da Ümummilli Liderimizi xatırlaması ilə başladı: Sizinlə Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram. 2008-ci ildəki son səfərimdən etibarən Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdim. Naxçıvanın bugünkü səviyyəyə çatmasında böyük payı olan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevi anadan olmasının 100-cü ildönümündə bir daha ehtiramla yad edirəm.

Türkiyə-Azərbaycan əlaqələri dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədədir. "Bir millət, iki dövlət" şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən bir dönüş nöqtəsidir. Naxçıvan tarix boyu daşıdığı strateji əhəmiyyəti ilə Azərbaycanla əlaqələrimizdə xüsusi yerə sahibdir. Naxçıvan bu gün də iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala malikdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensialı tam mənasında həyata keçirmək imkanına sahib olacağıq.

Naxçıvanla Ulu Öndərin bağlılığı barədə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev belə deyir: "Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən - 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".

Bəli, əgər blokadanın ilk ilində Ulu Öndər şəxsi nüfuzu, qonşu dövlətlərlə yaratdığı iqtisadi əlaqələr sayəsində naxçıvanlıları məhv olmaq təhlükəsindən qorudusa, sonrakı iki ildə burada böyük quruculuq işlərinin təməlini qoydu. Naxçıvan bütövlükdə yenidən qurulmağa başlandı. Sonrakı illərdə bu siyasətin dövlətimizin başçısı tərəfindən uğurla davam etdirilməsi və müvəffəqiyyətlə həyata keçirilməsi isə bu gün Naxçıvanı buraya gələn hər kəsin heyrət etdiyi diyara çevirdi.

25 sentyabrda iki türk liderinin Naxçıvanda imzaladığı sənədlər, təməlini qoyduqları böyükmiqyaslı işlər Naxçıvanın bol günəşi fövqündə yaxın gələcəkdə bu qədim diyarı nura boyayacaq. Buna hər kəs əmin ola bilər.

***Mətanət Məmmədova***

Azərbaycanın çoxəsrlik tarixinə yeni açılmış səhifə olan 2020-ci ilin 27 sentyabr tarixindən artıq üç il ötür. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! - deyən Prezident İlham Əliyev onu da bildirib ki, "Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!". Bəli, bu gün Azərbaycanın güclü ordusu, yenilməz ordusu var. O ordu ki, döyüş meydanınıda öz gücünü göstərə bildi. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.



çəkən hissələrindən olan 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3 - 4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üçrəngli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi.

Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Beləliklə, Hərbi Qənimətlər Parkı Azərbaycan Ordusunun döyüş əzminin, qəhrəmanlığının təcəssümüdür. Hərbi Qənimətlər Parkı müharibənin bütün mərhələsini özündə əks etdirir. Burada nümayiş etdirilən bütün qənimətlər göstərir ki, Qəhrəman Azərbaycan Ordusu döyüş meydanında bö-

# 27 sentyabrdan başlanan 44 günlük zəfər tariximiz!

## İlham Əliyev: "Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq"

### "QƏDİM AZƏRBAYCAN TORPAĞINDA BİZİM ÜÇRƏNGLİ BAYRAĞIMIZ DALĞALANIR"

Azərbaycan Prezidenti İlham Əliyev Laçına səfəri çərçivəsində çıxışında bildirdiyi kimi, "Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli Bayrağımız dalğalanır". 44 günlük Zəfərimiz Azərbaycan tarixinin ən şanlı və qürulu bir səhifəsidir. 44 gün - zaman baxımından çox qısa, tarixə isə əsrlərə bərabər bir gündür. Ötən əsrin son onilliyində baş verən ictimai-siyasi proseslər və torpaqlarımızın işğalı zamanı ermənilərin təcavüzkar siyasət həyata keçirərək, insanlıq əleyhinə vəhşilik törətmiş oldular. Həmin illərdə torpaqlarımızın işğalı ilə yanaşı, mülki əhaliyə böyük ziyan vurmuş, tarixi-mədniyyət abidələrini, infrastrukturu dağıtrmış, ağılasığmaz vəhşiliklərə imza atmışlar. 30 il yaxın işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri məhv edilmişdir. Bu gün müharibədən sonrakı dövrdə torpaqlarımıza qayıdarkən erməni təcavüzkarlarının hansı işləri görməsi insanları dəhşətə gətirir.

Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində "Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur" - deməsi tariximizə Zəfərin yazılması ilə daxil oldu: "Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müracət xalqın tarixində əhəmiyyətli bir tarixə çevrildi. Zaman-zaman Azərbaycan xalqının torpaq uğurunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Azərbaycan ordusu bu gün Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu göstərdi.

Təbii ki, bu uğurlu yolda neçə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrənilir. Dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasında Anım Günü təsis edilib. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Sərəncama əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd ediləcək.

Bu müharibə dövründə düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətdilər. Həmvətənlərimizin bir çoxu şəhid oldu, itkin düşdü, sağlamlığını itirdi. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Xalq-iqtidar birliyi zəfər, qələbə tarixini yazdı.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

### VƏTƏN MÜHARİBƏSİNDƏ PARLAQ QƏLƏBƏMİZİN RƏMZİ -HƏRBİ QƏNİMƏTLƏR PARKI

Bu gün xalqımızın, milyonlarla insanın qürur hissi ilə ziyarət etdiyi məkanlar sırasında Hərbi Qənimətlər Parkı da var. Yaşından asılı olmayaraq, hər kəs 44 günlük Vətən müharibəsində Ordumuzun gücünün, işğalçı Ermənistanın məğlubiyyətinin göstəricisi olan Hərbi Qənimətlər Parkına üz tutaraq Azərbaycan ordusunun qalibiyyətini bir daha görmüş olurlar. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktikanın döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı. Bu dünya tarixində görünməmiş Vətən müharibəsi kimi qiymətləndirildi. Hərbi Qənimətlər Parkının açılışı Vətən müharibəsində parlaq qələbəmizin bir rəmzinə çevrildi. Paytaxtımızda yerləşən Hərbi Qənimətlər Parkına səyahət edən hər bir kəs, istər azərbaycanlı olsun, istərsə də qeyri-xalqın nümayəndəsi, ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahları, ağır texnikaları, raket komplekslərini, hərbi nəqliyyat və digər sursatlar görür və ermənilərin məğlub xalq olduqlarının bir daha şahidinə çevrilirlər. Bildiyimiz kimi, dekabrın 10-da keçirilmiş Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilmişdi. Açıq səma altında salınan Hərbi Qənimətlər Parkında Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri olan Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisində yer alıb.

### "BU GÜN HƏR KƏS BİZİMLƏ HESABLAŞMALIDIR VƏ HESABLAŞACAQDIR"

Bu gün Hərbi Qənimətlər Parkına gələnlər nümayiş etdirilən qənimətlər sırasında KUB zenit - raket kompleksi, düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatları ilə tanış olurlar. Əlbəttə ki, burada yer alan hər bir eksponat diqqəti cəlb edir. Axı 44 günlük müharibədən əldə olunmuş qənimətlər bizi qələbəyə doğru aparırdı. Tarix boyu bu eksponatlara maraq olacaq. Belə ki, parkın diqqəti yük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Azərbaycanın Vətən müharibəsindəki qələbəsi onun şanlı səhifəsinə yazılıb.

Bildiyimiz kimi, sentyabrın 19-da Qarabağdakı qeyri-qanuni erməni silahlı birləşmələrinin həyata keçirdiyi hərbi təxribatlara cavab olaraq Ordumuz bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlayaraq yenidən xalqımıza qələbə sevincini yaşatdı. Bölgədə məskunlaşmış qeyri-qanuni erməni silahlı birləşmələri bu tədbirlər nəticəsində zərərsizləşdirildi. "Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir. Aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır". Bu sözləri Prezident İlham Əliyev xalqa müraciətində bildirib. "Azərbaycan ərazisində Ermənistan ordusuna məxsus qanunsuz olaraq yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzündən çox top artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir. 10 noyabr 2020-ci il üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini canlı qüvvəsini və texnikanı bizim ərazimizdən çıxarmamışdır", - deyən dövlətimizin başçısı dəfələrlə bu məsələyə qayıdaraq Azərbaycan dövlətinin haqlı narazılığını ifadə etdiyini bildirib.

Müzəffər Ali Baş Komandanın çıxışlarının birində bildirdiyi kimi, "Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır. Bəli, başqa yolları, çarələri yoxdur. Əks təqdirdə, "dəmir yumruq" yenə qılınc kimi başlarının üzərindədir və hər an yenidən işə düşə, sarsıdıcı zərbəsini endirə bilər".

**Nəzakət ƏLƏDDİNQIZI**









# Ermənilərin növbəti axmaqlığı:
# FİASKONU TRİUMFA ÇEVİRMƏK ARZUSU

İrəvanın mərkəzi küçələrində təşkil olunan etiraz aksiyaları, hətta toplaşanların vandallıq həddinə çatan vəhşi davranışları, onların yolları bağlamalarına irad bildirən avtomobil sürücülərini təhqir etmələri, onlara qarşı fiziki güc tətbiq etmələri, döymələri Ermənistanda vəziyyətin idarəetmədən çıxdığı qənaətinə gəlməyə əsas verir. Son günlər İrəvanın nəinki hansısa mərkəzi küçələrindən birində, elə Respublika meydanında mitinqə toplaşanların çıxışları və bu çıxışlar zamanı irəli sürülən iddialar onu deməyə əsas verir ki, erməni cəmiyyəti tamamilə başını itirib, nə istədiyinin özü də bilmir, hətta rüsvayçı məğlubiyyətlərinin fonunda böyük "iddialar" arzusundadırlar.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda terrorizmə qarşı mübarizə tədbirlərinin uğurla və sürətlə başa çatdırılması işğalçı ölkə ictimaiyyətində bir rezonans doğurub. Ermənilər özlərini elə aparırlar, elə bil bilmirdilər ki, separatçıların təxribatları dayandırmaları, ərazilərimizdən qanunsuz silahlı dəstələri çıxarmalı olduqları, silahı yerə qoymaları barədə Azərbaycanın çağırışlarına, tələblərinə əməl etməyəcəkləri təqdirdə onlara qarşı antiterror tədbirləri görülə bilər və yenə də məğlubiyyət acısını dadmalı olarlar. Bilirdilər, amma deyəsən başları daşa dəyənə qədər, daha doğrusu dəmir yumruq başlarına dəyənə qədər bunu anlamaqda çətinlik çəkirlərmiş. İndi də həmin yumruğun təsirindən ayılar-ayılmaz yenə də toplaşıblar meydanlara və vəziyyətdən düzgün nəticə çıxarmaq, doğru yolu seçmək əvəzinə özlərini daha dərin uçuruma doğru sürükləməkdədirlər və vətəndaş müharibəsi ilə üz-üzə qaldıqlarını da elə bil ki, anlamaq istəmirlər.

Özlərini demokratik dövlət kimi göstərməyə, təqdim etməyə, daha doğrusu, sırımağa çalışan Ermənistan hakimiyyəti bu etirazları ifrat, hətta hədsiz sərtliklə dağıtmaqdan da çəkinmir. Artıq bir neçə yüz etirazçının saxlanılması, ölkə polisi tərəfindən güc tətbiq edilərək aparılması təsdiq edir ki, mövcud hakimiyyət, ələlxüsus da baş nazir Nikol Paşinyan heç də istefa niyyətində deyil və hələ bu xəmir çox su aparacaq. Doğrudur, hadisələrin gedişi göstərir ki, revanşistlərin, o cümlədən Qarabağ klanının Paşinyanın istefasına nail olmaq üçün real şansı yoxdur. Bunu özləri də etiraf edirlər və bildirirlər ki, əgər 100 min insan topaşmış olsa, belə bir şansları ola, yarana bilər. Amma etiraf etmək istəmirlər ki, yaratdıqları vəziyyət Ermənistan daxilində yaradılan çatdır və işğalçı ölkə daxildən çatlayır. Etiraf etmək istəmirlər ki, Ermənistan sonu görünməyən daxili münaqişələrdən sarsılır. Ona görə etiraf etmək istəmirlər ki, onları düşündürən və maraqlandıran hakimiyyət kürsüsüdür və bu kürsü elə hazırkı hakimiyyət üçün də, onun müxalifəti üçün də, revanşistlər, Qarabağ klanı üçün də erməni xalqının müqəddəratından daha vacib, daha "qiymətli" sayılır.

Səfalət içərisində olan, inkişafdan, tərəqqidən söhbət belə gedə bilməyən bir ölkədə "Çiçəklənən Ermənistan" kimi gülünc adda bir partiyanın rəhbəri Sarukyan üçün deyəsən, əvvəlcədən də proqnozlaşdırılan həmin o miatsum mifinin dağılması, qarşılaşdıqları fiasko bir dərs olmayıb. İrəvanın bir neçə küçəsində, lap elə Respublika meydanının özündə belə boş və mənasız səs-küylə müşayiət olunan və nəticəsiz şəkildə məhdudlaşan etiraz aksiyalarından nə gözləyirlər? Bir-birinin ardınca mikrafona yaxınlaşanlar söz oyunundan başqa heç nə ortaya qoyan deyillər və elə bil söz yarışması keçirirlər. Bu qədər məğlubiyyətləri, itkiləri, qarşılaşdıqları fiasko fonunda boş söz yığınından gözləntiləri nədir? Bunlar nəyə ümid edirlər? Ən gülməli məqam isə odur ki, sanki torpaşanlar fiaskonu triumfa çevirmək arzusundadırlar və az qala buna inanmağa da başlayıblar.

Xatırladığımız kimi, hələ 44 günlük müharibədən öncə erməni cəmiyyəti müharibə olacağı təqdirdə qələbə qazanacağı ümidində idi və xəbərdarlıqlara da Ermənistan tərəfindən məhəl qoyulmurdu. Hətta sözügedən müharibə dönəmində də Ermənistan ictimaiyyəti özlərinin döyüşlərdə qələbə qazandıqları barədə aldadılırdılar və döyüşlərdə qələbə qazandıqları barədə işğalçı ölkə hakimiyyətinin yaydığı xəbərlərə də ermənilər nəinki inanırdılar, aldadıldıqlarını da həvəslə qəbul edirdilər. Özlərini məğlubedilməz hesab edən, reallıqdan çox, miflərdə yaşamağı məqbul hesab edən ermənilər özləri özlərini tezliklə qələbə qazanacaqlarına inandırmağa çalışırdılar. Məhz elə bu xislətləri məğlubiyyət acısını dadana qədər reallıqları görməkdə onlara mane olmuş oldu. 44 günlük müharibənin məntiqi nəticəsi olaraq, rüsvayçı məğlubiyyətlə qarşılaşan Ermənistan ictimaiyyətinin bununla barışmaq, məğlubiyyəti həzm etmək istəməməsi də, məhz həmin o miflərə inanma xislətindən qaynaqlanır. İndi də eyni şəkildə həmin xislət reallıqları görməyə mane olur və sonuncu fiasko fonunda erməni cəmiyyətində sanki hansısa triumf arzusu peyda olub.

İkinci Qarabağ müharibəsində qarşılaşdıqları rüsvayçı məğlubiyyət, təslim olmaları, kapitulyasiya sənədinə imza atmaları ermənilərə elə bil ki, dərs olmamışdı və təslim olduqdan, Üçtərəfli Razılaşmalara imza atdıqdan sonra təxribatlara əl atmaları bunu təsdiq edirdi. Hərbi qüvvələri 44 günlük müharibə dönəmində darmadağın edilən, silah-sursat, hərbi texnika, hətta böyük həcmdə maliyyə itgisi ilə üzləşən, çarəsiz vəziyyətə düşən ermənilərin Qarabağ ərazisində gizlənən silahlı qüvvələrinin tör-töküntülərinə, separatçı qalıqlarına bel bağlayaraq ümid etmələri özü də ən böyük yanlışlıq və axmaqlıq idi. Bunun yanlışlıq, axmaqlıq olduğunu onlar Azərbaycanın sonuncu antiterror tədbirləri zamanı gördülər. Cəmi 23 saatdan bir qədər artıq müddət ərzində davam gətirə bilməyən həmin o separatçı qalıqları ağ bayraq qaldıraraq təslim olduqları zaman erməni cəmiyyəti növbəti məğlubiyyət, fiasko acısını dadmış oldu. Halbuki, bunu əvvəldən dərk edə bilərdilər ki, 44 gün ərzində əsas hərbi heyətini darmadağın edən, silah-sursatının, hərbi texnikasının böyük hissəsini məhv edən, onları böyük itgilərlə üz-üzə qoyan Azərbaycan Ordusuna Qarabağ ərazisində gizlənən silahlıların tör-töküntüləri, separatçı qalıqları bir gün belə müqavimət göstərə bilməz. Yəni, 44 günlük müharibədə qarşılaşdıqları rüsvayçı məğlubiyyətin ardınca qələbə arzusu və niyyəti ermənilərin ən böyük səhvlərindən biri idi.

Eyni ilə indi də ermənilərin, Azərbaycan tərəfinin öz torpaqlarında həyata keçirdiyi həmin o antiterror tədbirlərində qarşılaşdıqları fiaskonun ardınca yenə xam xəyallara düşmələri təəccüb doğurur. Öz səhvləri ucbatından qarşılaşdıqları fəlakətlərdən dərs almaq, nəticə çıxarmaq əvəzinə hansısa xam xəyallara düşmək əlbəttə ki, təəccüb doğurmaya da bilməz. İndi küçə və meydanlarda etiraz aksiyaları keçirməklə, mövcud hakimiyyətin istefasını tələb etməklə nəyə isə ümid etmək son dərəcə böyük axmaqlıqdır. Elə zənn edək ki, Nikol Paşinyanın və ümumilikdə Ermənistan hakimiyyətinin istefasına nail olacaqlarına hədsiz böyük ümidləri var və hətta belə olacağı təqdirdə nəyə ümid edə bilərlər? Bir nəfərin, yaxud hansısa bir hakimiyyətin istefası məğlubiyyət damğasını erməni cəmiyyətinin üzərindən götürəcək, yoxsa onlara dərhal qələbə bəxş edəcək? İşğalçı ölkənin qarşılaşdığı bu boyda fiaskonu mitinqlərlə, həmin mitinqlərdəki boş-boş söz yarışmaları ilə, lap elə mövcud hakimiyyətin istefasına nail olmaqla belə truimfa çevirmək arzusu həddindən artıq absurd görünür.

***İnam Hacıyev***

ARAŞDIRMA

# Bizi keçmişdən nə uzaqlaşdırır?



XX əsrin ikinci yarısından etibarən dünyada cəmiyyətin sosial və iqtisadi həyatında əhəmiyyətli dəyişikliklərə şərait yaradan situasiyalar baş vermişdir. Bunlardan ən əhəmiyyətlisi, heç şübhəsiz ki, informasiya və telekommunikasiya texnologiyalarının (İKT) inkişaf etməsi olmuşdur. Bununla əlaqədar olaraq məşğulluq səviyyəsində müşahidə olunan artış, informasiyaya olan tələbatı da artırmışdır. Dünya iqtisadiyyatında telekommunkiya, hesablaşma texnologiyaları və digər inkişaf etmiş texnologiyaların istehsal edilməsi vacib bir sahəyə çevrilmişdir. İKT-nin inkişafı dünyada çox əvvəldən başlasa da, Azərbaycanda 90-cı illərdə özünü göstərmişdir, əsasən isə 1997-1998-ci illərdən sürətlə vüsət almışdır. Artıq getdikcə hər şey elektronlaşmaya doğru gedir. Günümüzdə ənənəvi qol saatlarından istifadə belə azalıb. Əksər insanlar ağıllı (smart) saatlardan istifadə edir. İstifadə sahəsi günügündən artan ağıllı saatların ən diqqət çəkən xüsusiyyəti sağlamlıq məlumatlarıdır. Bununla belə, bu məlumatların dəqiqliyi və məlumatların pozulması riskləri də müzakirə mövzusudur. Bəs, bizi keçmişdən uzaqlaşdıran nədir? Niyə elektron cihazlar həyatımıza bu qədər sirayət edib. SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Smart saat nədir?

Telefonlarımızdan sonra ən sürətli ağıllı cihazlar saatlarımızdır. Ağıllı saat sözü ingilis dilində olan "Smart Watch" sözündən yaranıb. Klassik mexaniki və elektron saatlardan fərqli olaraq, onlar smartfona qoşulur, mobil cihazdan yüklənən bütün məlumatı istifadəçiyə çatdırmaq üçün sensor ekrandan istifadə edir.



Başqa sözlə, bu sizin smartfonun əksidir. Əgər smart saat telefonsuz işləyirsə, onlar müxtəlif ötürücülər - ürək ritminin ölçülməsi, addım ölçən, məsafə ölçən və hətta arterial təzyiq ölçən kimi ötürücüləri çalışdırır. Göstəricilər birbaşa saatın displeyində əksini tapır.

Rəqəmsal rəqəmlər saat və dəqiqə əqrəblərini əvəz etdi. Telefonlarımız saatlarımıza qoşuldu və onlar vasitəsilə mesajlarımızı oxumağa, e-poçtlarımızı yoxlamağa başladıq.

İndi ağıllı saatlar qan oksigenini ölçür, EKQ çəkir, ürək döyüntüsünü izləyir və hətta bizə gündəlik içməli olduğumuz suyun miqdarını bildirir.

Bu cihazların təqdim etdiyi məlumatlar əslində böyük potensiala malikdir, lakin elmi araşdırmalar göstərir ki, bu cihazların verdiyi məlumatlar təəssüf ki, 100 faiz dəqiq deyil. Bununla belə, xüsusilə uzun müddətli təqib tələb edən xəstələrdə ağıllı saatların çox yaxşı işlədiyini söyləmək olar.

## Ağıllı saatdan istifadə sağlamlıq üçün zərərlidirmi?

Ağıllı saat istifadəsində bəlkə də ən narahatedici məsələlərdən biri onun sağlamlığa mənfi təsirləridir.

Mövzu ilə bağlı araşdırmalar göstərir ki, ağıllı saatlar telefonla danışmağımızı təmin edən texnologiyalardan fərqli üsullardan istifadə etdikləri üçün ciddi problemlər yaratmır.

## Ağıllı saatlar hansı təhlükələr doğurur?

Bir çox ağıllı saatlarda təhlükəsizlik mühafizəsi olsa da, hakerlər mobil şəbəkələrə qoşulan cihazları sındıra bilər. Cihazınız mobil ödənişlərə açıqdırsa və ya evinizdə və avtomobilinizdəki digər cihazları idarə edə bilirsə, bu təhlükə arta bilər.

Sağlamlıq məlumatlarının toplanmasına insanın yerinin müəyyən edilməsindən tutmuş əl hərəkətlərinin qeydə alınmasına (ağıllı qolbaq və ya ağıllı saatdan istifadə edərkən) və parolların əldə edilməsinə qədər potensial təhlükələr daxildir.

Məsələn, 10 milyondan çox insanın istifadə etdiyi sağlamlıq proqramında istifadəçilər qaçış marşrutlarını ictimai xəritədə paylaşırlar. Bu sahədə ABŞ-ın Suriya və Əfqanıstandakı gizli hərbi bazaları üzə çıxmışdı. Çünki əsgərlər tətbiqdən istifadə edərək qaçış xəritələrini paylaşmışdı və bu da həmin bölgələrdəki bazaların üzə çıxmasına səbəb olmuşdu.

## Bəs, cihazlara nəzarəti necə təmin etmək olar?

Əvvəla, telefonlarımızda olduğu kimi, saatlarımızda da hesablara və geolokasiyaya giriş sorğularına icazə verməməliyik.

Cihaz parollarının dəyişdirilməsi və kilid ekranının aktivləşdirilməsi də müdafiənizi artıra bilər. Son olaraq təhlükəli olan əlavə tətbiqlərdən qaçınmaq da faydalıdır.

## Niyə bu qədər inkişaf etdi?



Texnologiya daim özünü yeniləyir və gün-gündən inkişaf edir. Bu sabit deyil. Buna görə hər keçən gün yeni bir texnoloji inkişafla qarşılaşmaq mümkündür. Bu inkişaflar insanın həyatına təsir edir. Texnologiyanın bu qədər inkişaf etməsinin səbəbi nədir? Mövzu barədə texnoloq Fərhad Mirəliyev fikirlərini bölüşüb: "Düşünürəm ki, bu, təhsilin səviyyəsi, daha doğrusu əlçatanlığı ilə bağlıdır.

XVIII əsrdə kağız (kitab, dəftər) istehsalının dəyəri azaldı. Sürətli bilik mübadiləsi imkanı yarandı. Buna görə də hətta kasıb təbəqə də elmlə məşğul olmağa başladı. Bu da öz növbəsində, elmin sürətli inkişafına, elektrik enerjisinin və internetin kəşfinə səbəb oldu. Müharibə komputerin ixtirasına kömək etdi. Bundan əlavə, sürət məsələsi də var.

Artıq cəmiyyət olaraq, bəşəriyyət olaraq gündəlik həyatımız sürətli reaksiyalar tələb edir. Bu tələblər isə yeni texnologiyaları doğurur".

## Texnologiya insanın həyatını asanlaşdırır...

İnsanların texnologiyanı belə asanlıqla qəbul etməsi isə bir başqa mövzudur. Bunun ən tez ağılagələn səbəbi insanların işini asanlaşdırmasıdır. Başqa sözlə, insanlar texnologiyanı tez bir zamanda qəbul etdilər və həyatlarında istifadə etdilər. İnsanların gündəlik həyatında texnoloji iştirakı bir çox kəşflər kimi uzun illər almadı. İnsanların həyatını hər cür asanlaşdırdığından, qısa bir müddət saxlanılır və qəbul edilir. Texnologiya insanların həyatına müxtəlif yollarla faydalana bilər. Bəzi insanlar texnologiyanı istifadə edərək işlərini daha sürətli edirlər və bunu tətbiq edirlər. Hər iki vəziyyət bir çox insanın həyatını asanlaşdırır və bir çox insanlar üçün həyat səviyyəsini qaldırır. Buna görə də qəbul edilir və üstünlük təşkil edir.

## Elektron hökumətin faydası



Ümumilikdə elektronlaşmadan söhbət gedirsə bilirik ki, artıq nəinki sadəcə insanlar hökumətlər də elektronlaşır. Bəs, dövlətlərin, hökumətlərin rəqəmsallaşması hər hansı zərəri varmı? Bu barədə İT mütəxəssisi Vahid Qasımov öz fikirlərini bildirib: "Elektron hökumətin ancaq və ancaq faydası var. Xidmətlər elektronlaşmalıdır. Vətəndaşlar evdən çıxmadan, idarəyə getmədən rahat şəkildə lazım olan sənədləri, məlumatları əldə etməlidir. Həddən ziyadə digitallaşmanın yaratdığı sadəcə bir problemi var, bu, sosioloji və psixoloji problemdir. Yəni belə olanda insanlar normal ünsiyyətdən məhrum qalırlar. Bir-birləri ilə ünsiyyət qurmaqda çətinlik çəkirlər.

Azərbaycanda hökumətin elektronlaşmasının hansı səviyyəsinə gəldikdə isə mütəxəssis qeyd edib ki, elektron hökumət mövzusunda ölkəmizin vəziyyəti heç də pis deyil. Hətta müqayisə etsək, bəzi Avropa ölkələrindən daha yaxşı səviyyədəyik. Səbəb isə bizim bu trendə gec girişməyimizlə bağlıdır. Gec girişdiyimizə görə ən yeni texnologiyalara sahibik. Kim ki bizdən əvvəl bu sahəyə girişib, onun tətbiq etdiyi texnologiyalar bu gün üçün köhnədir. Həmin texnologiyanı yeniləmək isə hazırda ona sərf etmir. Çünki pul ödəyib.

Nəzərə alsaq ki, Azərbaycan neft ölkəsidir, deməli, bizim pul problemimiz də yoxdur. Ona görə də elektronlaşma mövzusunda bizim imkanlarımız normal səviyyədədir. Bizdə qənaətbəxş olmayan şey xidmətdir. Digital müraciət sadəcə yoldur, xidməti göstərən insanlardır. "Sizə cavab qırx və ya beş iş günü ərzində veriləcək" deyilməsi problemdir, çünki müddətlər həddən artıq uzundur. Yəni xidmət aşağı, sistem yüksək səviyyədədir. Bu isə kadr problemindən qaynaqlanır. Kadr bizim ümummilli problemimizdir".

Azərbaycan cəmiyyətində elektronlaşma bir qədər fərqli inkişaf edir. Niyəsə texnologiyanın inkişafından düzgün istifadə edə bilmirik. Elektronlaşma cəmiyyətimizdə hansı şəkildə təzahür edir? **Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net-in təsisçisi, yazıçı-kulturoloq Aydın Xan Əbilov mövzu ilə bağlı geniş şəkildə danışıb:** "Bəşəriyyət böyüyən dövrlərdə elə ixtiralar, texniki yeniliklər edir ki, həm insanlar üçün rahat olsun, həm inkişafa stimul versin, həm təbiətin qorunmasına kömək etmiş olsun. Bu mənada son illərin "ağıllı" avadanlıqları, xüsusilə də elektrik enerjisi ilə işləyən müxtəlif texniki vasitələr bütövlükdə insanların komfortuna hesablanıb. Dünyanın ən nəhəng şirkətləri ixtisaslaşmış xüsusi intellektualların, texniki mühəndislərin iştirakı ilə müxtəlif smart cihazlar ixtira edirlər. Bunlar məişətimizi, kənd təsərrüfatımızı, sənayemizi, hətta kosmosu belə fəth etməyə başlayıb. Artıq IV sənaye dövründə yaşayırıq. İndi texniki qurğulardan yalnız sənayedə, məişətdə istifadə edilmir. Elmin, təbabətin və ümumilikdə həyatın elə bir sahəsi yoxdur ki, orada avtomatlaşdırma, süni intellektləşdirmə və robotlaşma getməsin. Azərbaycan cəmiyyəti hər zaman bu texniki yeniliklərə açıq olub. Biraz lovğalanmağı da xoşladığımız üçün ən yeni texnologiyanı ölkəmizdə görmək istəyirik. Doğrudur, yeni texnologiyaya açıq olmaq müsbət bir haldır. Amma bunun mənfi cəhətləri də var. Cəmiyyət olaraq lazım oldu və ya olmadı çox bahalı texniki avadanlıqlara vəsait ayırırıq. Tələbə hara, ən bahalı telefondan və ya maşından istifadə etmək hara? Bu, izafi xərclərdir. Əgər həmin telefondan, kompüterdən, ağıllı saatlardan biznesimizin inkişafı və ya başqa işimiz üçün istifadə ediriksə, bu başadüşüləndir. Amma özünü başqalarına göstərmək üçün belə bahalı avadanlıqların istifadəsi çox gülünc görünür. Əgər 150 dollarlıq və brend adı altında satılan 1500-3000 manatlıq cihazlar eyni funksiyanı yerinə yetirirsə, niyə sırf bahalı olanı almalıyıq?



Ümumilikdə isə elektronlaşma çox güclü gedəcək bir prosesdir. Biz cəmiyyət olaraq buna hazır olmalıyıq. Artıq dövlət olaraq da biz elektronlaşmaya gedirik. Yüksək sürətli optik internet, Qarabağda smart kəndlərin yaradılması, Sumqayıt və digər texnozonalarda smart cihazların istehsalına təkan verə biləcək zavodların tikilməsi onu sübut edir ki, dövlət olaraq bu yöndə yaxşı istiqamət götürmüşük. Amma insanlarımız bu yöndə bir qədər tənbəldir. Bəlkə də ölkəmizin iqtisadi imkanları nəhəng ölkələrin bazarı kimi geniş deyil və öz bilik, bacarıqlarını burada tətbiq edə bilmirlər deyə daha çox xaricə üz tuturlar. Dünyanın hər yerində artıq azərbaycanlı mütəxəssislərin uğurlarının şahidi oluruq. Amma Azərbaycanda sadəcə göstəriş üçün bu cihazlara üz tuturlar. Belə olduğu halda biz elektronlaşmanın yalnız əsirinə çevrilə bilərik, nəinki qəhrəmanına. Niyə Azərbaycanda "iPhone" istehsal edilməsin? Düşünürəm ki, Azərbaycanda Çin, İran və digər ölkə maşınlarını istehsal etməkdənsə, yeni texnologiyalara üstünlük vermək lazımdır".

***Ləman Sərraf***

# Türk dünyasının həmrəyliyinə töhfə

Sentyabrın 25-də dünyanın diqqəti Naxçıvan Muxtar Respublikasına yönəldi. Azərbaycana növbəti rəsmi səfərini edən qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanı Türkiyəni türk dünyası ilə birləşdirən Naxçıvanda dövlət başçısı İlham Əliyev qarşıladı. Türkiyə Prezidentinin Naxçıvan səfəri zamanı iki dost, qardaş, müttəfiq ölkənin sarsılmaz birliyi, həmrəyliyi bir daha bütün dünyaya nümayiş etdirildi. Azərbaycan və Türkiyə prezidentləri Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında, İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirak etdilər. Qaz kəmərinin təməlinin qoyulması mərasimindən sonra Azərbaycan-Türkiyə sənədləri imzalandı. Bu sənədlər iki dost, qardaş ölkə arasında əlaqələrin inkişafında möhkəm hüquqi baza olaraq əhəmiyyətli rol oynayacaq.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

O deyib: "Sentyabrın 25-də imzalanan sənədlər bizi 2020-ci ilin 10 dekabr tarixində ölkəmizdə keçirilən Zəfər paradında iştirak etmək üçün Azərbaycana səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səfər çərçivəsində sənədlərin imzalanması mərasimindən sonra azərbaycanlı həmkarı İlham Əliyevlə mətbuata birgə bəyanatlarında səsləndirdiyi fikirləri yada salmağa çağırış edir. Qardaş ölkənin Prezidenti həmin gün qeyd etmişdi ki, bu gün atılan imzalar, əslində, simvolik imzalardır. Atılacaq daha çox imzalar var. Bu imzalarla birlikdə inşallah, Azərbaycan Qarabağın tamamilə fərqli şəkildə yüksəlişinə davam edəcək.

Həmin vaxtdan ötən üç ilə yaxın dövrdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına yönələn qarşılıqlı səfərlərin, həmçinin imzalanan sənədlərin say tərkibinə diqqət yetirdikdə bu imzaların işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun fərqli şəkildə yüksəlişinə necə böyük təsir göstərdiyini görməmək mümkün deyil. Türkiyə şirkətləri bu gün azad Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərində fəal iştirak edirlər. Türkiyə Prezidenti azad Qarabağa və Şərqi Zəngəzura ilk səfər edən dövlət başçısıdır. Azərbaycan və Türkiyə prezidentləri hər zaman bir-birlərinin yanında olmaqdan qürur duyurlar. Qarabağın və Şərqi Zəngəzurun hava qapıları olan Füzuli və Zəngilan Beynəlxalq aeroportları məhz Azərbaycan və Türkiyə prezidentlərinin birgə iştirakları ilə dünyaya açılıb. Birgə atılan addımların miqyası o qədər genişdir ki, onların tam şəkildə xronologiyasını təqdim etmək mümkün deyil. Bu baxımdan şübhə yoxdur ki, Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində imzalanan hər bir sənəd də əlaqələrin inkişafında yeni mərhələnin, yeni prioritetlərin müəyyənləşdirilməsəsində mühüm rol oynayacaqdır. Bu sənədlər arasında iki qardaş ölkə prezidentlərinin iştirakı ilə imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nu xüsusi qeyd etmək istərdim. Ümumilikdə, Azərbaycan və Türkiyə prezidentlərinin Naxçıvan görüşü bir çox yaddaqalan məqamlarla diqqətdə oldu".



Vüqar Rəhimzadə qeyd edib ki, iki qardaş ölkə hər zaman birlik, həmrəylik çağırışları ilə dünyanın diqqətindədir. Dünya bu iki dost ölkənin timsalında qardaşlığın, müttəfiqliyin nümunəsini görür. Böyük öndərlər Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir", Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" fikirləri bütün dövrlər üçün aktuallığını qoruyur, münasibətlərin yüksələn xətlə inkişafına bələdçilik edir. Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata birgə bəyanatları iki qardaş ölkənin münasibətlərinin dünəninə, bu gününə və gələcəyinə bir daha işıq saldı. Belə ki, Prezident İlham Əliyev mətbuata bəyanatında diqqəti bu günlərdə Azərbaycanın 24 saat müddətində apardığı lokal xarakterli antiterror tədbirlərinə yönəldərək bildirdi ki, əziz qardaşım bu hadisə baş verəndə Amerikada, Nyu-Yorkda idi. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında iştirak edirdi. Orada dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən ədalətli bəyanatlar verdi. Bu, tamamilə beynəlxalq hüquqa əsaslanmış bəyanatlar idi. Qarabağ Azərbaycan torpağıdır. Bu, həm həqiqətdir, eyni zamanda, beynəlxalq hüquqa tam uyğundur, Türkiyə tərəfindən göstərilən növbəti qardaşlıq addımıdır. Dövlət başçısı İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsinin başlandığı andan qardaş ölkənin yanımızda olduğunu, Prezident Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" çağırışını bir daha xatırlatdı və bildirdi ki, bu, bir çoxları üçün ciddi siqnal, mesaj idi. Azərbaycan xalqı bu siyasi və mənəvi dəstəyi heç vaxt unutmur və unutmayacaq.

YAP Xətai rayon təşkilatının sədri iki ölkənin münasibətlərinin inkişafında yeni mərhələnin əsası olan Şuşa Bəyannaməsinə də diqqəti yönəldib. Qeyd edib ki, dövlət başçısı İlham Əliyev mətbuata bəyanatında bu sənəddən də bəhs etdi. Bu gün bu əlaqələr ən yüksək zirvədədir və bütün istiqamətlər üzrə əlaqələrimiz çox fəal dövrünü yaşayır. Türkiyədən Azərbaycanın bir parçası olan Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start verildi. Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da tarixi hadisədir. Ölkə Prezidenti belə bir əminliyi ifadə etdi ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcək.

Vüqar Rəhimzadə səfərin vacib məqamlarından biri kimi, Naxçıvanda alternativ enerji resursları hesabına elektrik enerjisinin ötürülməsi və ixrac olunması üçün sistemin qurulmasının nəzərdə tutulduğunu qeyd edib. Çünki Naxçıvan bu sahədə böyük potensiala malikdir. Hazırkı dövrün əsas çağırışlarından birinin məhz bərpa olunan enerji mənbələrinə investisiyaların yatırılması olduğunu nəzərə alsaq, bu mühüm məsələnin əsas müzakirə edilən mövzular sırasında olması təqdir edilir. Prezidentlərin mətbuata birgə bəyanatlarında bu mühüm addım da diqqətə çatdırıldı ki, bir neçə gündən sonra Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcək. Prezident İlham Əliyev belə bir əminliyi də ifadə etdi ki, forumun nəticələri uğurlu olacaq. Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı böyük planlar var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər.

Onun sözlərinə görə, qardaş ölkənin Prezidentinin paytaxt Bakı ilə yanaşı, Azərbaycanın bölgələrinə də səfər etməsi, bu məkanlarda qarşılanmaqdan qürur hissi keçirməsi münasibətlərimizin möhkəm təməl üzərində uğurlu inkişafından xəbər verir. Rəcəb Tayyib Ərdoğan bu qardaşlığı "Türkiyə-Azərbaycan əlaqələri dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədədir. "Bir millət, iki dövlət" şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk" fikirləri ilə ifadə etdi. Bildirdi ki, təməli qoyulan İğdır-Naxçıvan qaz kəməri layihəsi Azərbaycan ilə enerji sahəsində ortaqlığımızı daha da dərinləşdirəcəyi kimi, Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək. Ümumiyyətlə, nəqliyyat, logistika və enerji sahələrindəki əlaqələri inkişaf etdirmək üçün iradə ortaya qoyuldu.

Vüqar Rəhimzadə belə bir ümumiləşdirmə aparıb ki, zəngin tarixə, sıx dostluq, qardaşlıq münasibətlərinə əsaslanan Azərbaycan-Türkiyə müttəfiqliyinin daha da dərinləşməsi üçün geniş imkanlar mövcuddur. Bu münasibətlər liderlərin şəxsi münasibətlərinin, səmimiyyətin əsasında daha da möhkəmlənir. Dünyaya nümunə olan bu dostluğa edilən əlavələr, Azərbaycan-Türkiyə birliyi ümumilikdə türk dünyasının həmrəyliyinə böyük töhfədir. Zəngəzur dəhlizinin açılması türk birliyini daha da möhkəmləndirəcək.



## "SƏS" Media Qrupun rəhbəri Bəhruz Quliyevlə Turqay Türker arasında görüş keçirilib

Dünən "Səs" qəzetinin redaksiyasında Səs Media Qrupun rəhbəri Bəhruz Quliyevlə Türkiyə İqtisadiyyat Müxbirləri Dərnəyinin sədri Turqay Türker arasında görüş keçirilib. SİA xəbər verir ki, görüşdə Türkiyə və Azərbaycan arasında mədəni, sosial, ictimai və iqtisadi sahələrdə əməkdaşlığın artırılması, hər iki xalq arasında dostluq əlaqələrinə töhfə verilməsinin vacibliyi vurğulanıb. Bəhruz Quliyev qonağı salamlayıb, onu redaksiyamızda görməkdən məmnun olduğunu bildirib. Daha sonra Turqay Türkər qeyd edib ki, Azərbaycana dəfələrlə səfər edib: "Türkiyədə çox sayda azərbaycanlı jurnalist var. Biz onlarla bütün çətinlikləri bərabər yaşadıq. Ortada inanılmaz bir Azərbaycan-Türkiyə qardaşlığı var. Bunu sözlərlə ifadə etmək mümkün deyil. Mən bunu, Ulu Öndər Heydər Əliyevin nitqindən də eşitmişəm ki, "Türkiyə-Azərbaycan bir millət, iki dövlətdir". Artıq biz "Bir millət və bir dövlətik".

Azərbaycanın dik duruşu, heç kimə baş əyməməsi ölkənizin taleyini dəyişdi. Xüsusilə Qarabağ savaşında Azərbaycanın uğurlu olması Türkiyədə də sevinclə qarşılandı. Bu mənim üçün də çox dəyərlidir. Arzumuz odur ki, Qarabağ erməni separatçılarından tamamilə təmizlənsin".

Turqay Türkər dərnək barədə söhbət açaraq bildirib ki, Türkiyə İqtisadiyyat Müxbirləri Dərnəyi Ankarada 50 il əvvəl qurulub: "Bu iqtisadiyyat sahəsində çalışan bütün jurnalistlərin toplaşdığı bir təşkilatdır. Burada iqtisadi sahədə müxbirlərin bilməsi lazım olan bütün məlumatlar onlara izah edilir".

Bəhruz Quliyev isə qeyd edib ki, Türkiyə ilə münasibətlərimiz yalnız mətbuat sahəsində deyil, bütün sahələrdədir: "Bu da iki xalq arasında qardaşlıq və dostluq əlaqələrinin daha da genişlənməsi üçün lazımdır. Biz bir millətik. Bizim tarixi bağımız, mədəniyyət və din birliyimiz var. Türkiyə Azərbaycan qardaşlığı təkcə dövlət səviyyəsində deyil, eyni zamanda xalqlarımız səviyyəsindədir. Bu gün bu dostluq özünü dövlətin strateji planlarında göstərir. Bütün iqtisadi, siyasi və sosial məsələlərdə Türkiyə-Azərbaycan vahid nöqtədə birləşib. Ona görə də Qarabağ məsələsinin həllində Türkiyə siyasi, diplomatik və hərbi sahədə Azərbaycanın yanında oldu. Bu hadisələr bizi daha da yaxınlaşdırdı".

Bəhruz Quliyev əlavə edib ki, bizim ortaq dəyərləri mənimsəmiş və onu gələcək nəsillərə ötürəcək jurnalistlərə ehtiyacımız var: "Ümid edirəm ki, ortaq dəyərlərimiz yazılarımızda da özünü göstərəcək. Bir daha xoş gəlmisiniz. Unutmayın ki, bura sizin də media orqanınızdır". Sonda isə xatirə fotosu çəkilib.

***Ayşən Vəli***

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il sentyabrın 26-da YAP Yardımlı rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yardımlı rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Daha sonra təşkil olunan dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısında müstəsna xidmətlərindən bəhs olunub.

# Dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlığı

Bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. Çünki bu birlik 14 yanvar 1992-ci ildən bu günə kimi, düz 31 ildir ki, "Bir millət, iki dövlət", Azərbaycan-Türkiyə dövlətlər arasında diplomatik münasibətləri qurulub. Bu günün reallığı Azərbaycan-Türkiyə birliyi və qardaşlığının əbədi və sarsılmaz olduğunu təsdiqləyir. İki dövlət rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir. Bu başqa cür də ola bilməz. Çünki qədim tarixlərin sınağından çıxmış Azərbaycan-Türkiyə - "bir millət, iki dövlət" həmrəyliyinin nəticəsi idi. Bu birliyin nəticəsini biz 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinin ilk günündən Qələbə Zəfrinə kimi Türkiyə daim bizimlə bir olub. Sevincimizə, kədərimizə şərik olub. Qardaş ölkənin Prezidenti işğaldan azad edilən ərazilərimizə səfər edən ilk xarici ölkə başçısının olması iki qardaş ölkənin münasibətlərinin möhkəm təmələ malik olduğunun, Türkiyə-Azərbaycan dostluq və qardaşlığının dünyaya bir nümunə, örnək olduğunun göstəricisidir. Əsrlərə bağlı olan bu birlik, dostluq və qardaşlıq münasibətlər günümüzdə hər iki ölkənin lideri Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev və qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sayəsində daha da inkişaf edir, möhkəmlənir və irəli gedir. Və cari ilin iyun ayının 12-də Türkiyənin 13-cü Prezidenti seçilən Rəcəb Tayyib Ərdoğanın ilk səfərini Şimali Kipr Cümhuriyyətinin ardınca Azərbaycana və sentyabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda rəsmi səfərləri, ilk növbədə, iki qardaş ölkə arasında münasibətlərin ən yüksək səviyyədə olmasının, bir millətin iki dövlətin - Azərbaycanla Türkiyənin sarsılmaz birliyinin dünyaya bir mesajıdır.



**RƏCƏB TAYYİB ƏRDOĞAN: "Türkiyə-Azərbaycan əlaqələri dünyada bənzəri olmayan müstəsna bir mövqedədir"**

**İLHAM ƏLİYEV: "Türkiyə lideri dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən ədalətli bəyanatlar verdi"**

Təhlil

### AZƏRBAYCAN PREZİDENTİ: "Bu gün Azərbaycan-Türkiyə əlaqələri ən yüksək zirvədədir"

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu deyib: "İki il bundan əvvəl uzun zaman davam edən işğaldan sonra azad edilmiş Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi - müttəfiqlik bəyannaməsi bizim münasibətlərimizi yeni müstəviyə qaldırdı". Dövlətimizin başçısı qeyd edib: "Bu gün bu əlaqələr ən yüksək zirvədədir və biz indi bütün istiqamətlər üzrə əlaqələrimizin çox fəal dövrünü yaşayırıq".

Bəli, 15 iyun, 2021-ci il - Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq iki güclü liderlərin - Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin işğaldan azad olunmuş Qarabağımızın baş tacı olan Şuşada Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi müttəfiqlik nümunəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".

### PREZİDENT İLHAM ƏLİYEV: "İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi əlaqələrimizə yeni təkan verəcək"

"Naxçıvana səfər zamanı imzalanmış sənədlər Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına xidmət göstərəcək. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisədir və bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı bildirib: "Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi, burada da şiddətli döyüşlər gedirdi. Və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə , - o zaman o, Naxçıvanın başçısı idi, - Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bilmişdir".

Prezident İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında Qars-Naxçıvan dəmir yolunun inşasına dair niyyət protokolunun imzalanmasını tarixi hadisə olduğunu bildirib: "Vaxtilə biz Sizinlə (Ərdoğan - red.) TANAP layihəsinin təməlini qoymuşduq, TANAP boru xəttinin açılışını bərabər etmişdik. Bu gün isə Türkiyədən Azərbaycanın parçası olan Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start veririk". "Qars-Naxçıvan dəmir yolunun inşasına dair niyyət protokolunun imzalanması da tarixi hadisədir. Əminəm ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcək",-deyə dövlətimizin başçısı əlavə edib.

### PREZİDENT İLHAM ƏLİYEV: "Beş gün bundan əvvəl Azərbaycan öz suverenliyini tam təmin etmişdir"

"Beş gün bundan əvvəl Azərbaycan öz suverenliyini tam təmin etmişdir. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, - Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla, - beş gün əvvəl biz suverenliyimizi tam təmin etdik, bərpa etdik". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında deyib.

"İyirmi dörd saat ərzində, ondan da az həyata keçirilən antiterror tədbirləri nəticəsində Ermənistan ordusu - Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, bizim şərtlərimizi qəbul etdi və beləliklə Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir", - deyə dövlətimizin başçısı bildirib. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında onu da bildirib ki, Qarabağ bölgəsində yaşayan insanlar milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşlarıdır. Dövlətimizin başçısı deyib ki, onların təhlükəsizliyi, güvənliyi, hüquqları Azərbaycan dövləti tərəfindən təmin ediləcək. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında əminliklə söyləyib ki, Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya prosesi uğurla gedəcək: "Bir neçə gün bundan əvvəl Qarabağ ermənilərinin nümayəndələri ilə Azərbaycan dövlət strukturlarının nümayəndələri arasında Yevlax şəhərində görüş keçirilmişdir. Bu gün ikinci görüş keçirilir".

### PREZİDENT İLHAM ƏLİYEVDƏN ƏRDOĞANA: "BMT-də Azərbaycanın maraqlarını ifadə edən bəyanatlarınız növbəti qardaşlıq addımıdır"

"Bu hadisə (antiterror tədbirləri - red.) baş verəndə Siz (Ərdoğan - red.) Amerikada idiniz, Nyu-Yorkda idiniz, BMT-nin Baş Assambleyasında iştirak edirdiniz. Orada, dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlar vermişdiniz, ədalətli bəyanatlar vermişdiniz, tamamilə beynəlxalq hüquqa əsaslanmış bəyanatlar vermişdiniz - "Qarabağ Azərbaycan torpağıdır!". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında söyləyib. Dövlətimizin başçısı qeyd edib ki, bu, həm həqiqətdir, eyni zamanda, beynəlxalq hüquqa tam uyğundur, həmçinin Türkiyə tərəfindən atılan növbəti qardaşlıq addımıdır.

Bu yerdə Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməsi ilə bağlı bir məqamı xatırlatmaq yerinə düşər. Belə ki, Ermənistanın qatil rəhbəri Praqada keçirilən, Türkiyənin təmsil olunmadığı "Şərq Tərəfdaşlığı" sammitində "dərə xəlvət, tülkü bəy" yanaşmasından çıxış edərək qardaş ölkənin ünvanına saxta ittihamlar, hədyanlar söyləyəndə Azərbaycan Prezidenti İlham Əliyev "Türkiyə burada yoxsa da, mən buradayam və sizin cavabınızı verəcəyəm", söyləməklə dünyanı mat qoymuşdu, eyni zamanda, bütün Türk dünyasının ürəyini fəth etmişdi. Eyni zamanda, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır", "Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olacaq", mövqeyi ilə Türk birliyi mesajını verdi dünyaya.

### RƏCƏB TAYYİB ƏRDOĞAN: "Türkiyə-Azərbaycan əlaqələri dünyada bənzəri olmayan müstəsna bir mövqedədir"

Türkiyə Prezidenti deyib ki, bir millət, iki dövlət olaraq əlaqələrimizi və əməkdaşlığımızı hər sahədə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. Bir sözlə, Əliyev-Ərdoğan birliyi və həmrəyliyi, ümumiyyətlə, dövlət başçılarının bir-birinə "qardaşım" deyərək müraciət etmələri həm xalqlarımız, həm də dünya birliyi üçün əsl nümunədir. Və Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluq və qardaşlığı maraqlar, mənfəətlər üzərində qurulmayıb, quru sözlərdən ibarət deyil, sözdə, əməldə, konkret fəaliyyətdədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev ilə keçirilən mətbuata bəyanatında Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdiyini söyləyib: "Bu dəfə Sizinlə (Prezident İlham Əliyev - red.) Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram".

### TÜRKİYƏ PREZİDENTİ: "Azərbaycanlı qardaşlarımız Türk millətinin ədalət və mərhəmətini bütün dünyaya göstərdilər"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvanda Azərbaycan Prezidenti İlham Əliyev ilə keçirilən mətbuata bəyanatında Müzəffər Azərbaycan Ordusunu həm tarixi qələbə, həm də mülki şəxslərə göstərdiyi humanitar davranış münasibətilə ürəkdən təbrik edib. Türkiyə Prezidenti, həmçinin bildirib: "Azərbaycanlı qardaşlarımız Türk millətinin ədalət və mərhəmətini bir daha bütün dünyaya göstərmişlər".

Budur, "Bir millət, iki dövlət"in qardaşlığı, həmrəyliyi. Bu gün öz liderlərinin sayəsində hər iki ölkə bütün dünyada böyük uğurlar əldə edən, prinsipial siyasət yürüdən güc kimi tanınırlar. Artıq şübhə yoxdur ki, iki xalq və dövlət arasındakı qardaşlıq daimidir və yaxın vaxtlarda biz hər iki ölkənin növbəti uğurlarına şahidlik edəcəyik. Bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə addımlayıb, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar. Çünki hər iki ölkə liderlərinin səfərləri maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlıq birlik səfəridir.

*RƏFİQƏ KAMALQIZI*

# "Əsrin müqaviləsi"- Azərbaycanın neft strategiyasının əsası

## İlham Əliyev:"Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxardı və bu gün "Əsrin kontraktı" bizim neft sənayemizin inkişafında öz rolunu oynayır"

Artıq sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 29-cu ili tamam oldu. Bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bu müqavilə ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdən birincisi kimi tarixdə yer aldı. Azərbaycan müstəqillik əldə etdikdən sonra bir sıra beynəlxalq müqavilələr imzalanmışdı, amma "Əsrin müqaviləsi"nin imzalanması, məhz Azərbaycan iqtisadiyyatını irəliyə doğru aparan amillərdən birinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, "Bu gün Azərbaycanın uğurlu inkişafı timsalında biz məhz o illərdə atılmış addımların təzahürünü görürük. Görürük ki, ulu Öndər Heydər Əliyevin bütün başqa xidmətləri ilə bərabər, bu sahədə xalq qarşısında, dövlət qarşısında göstərdiyi xidmətlər ən yüksək qiymətə layiqdir. Biz - onun davamçıları bu sahədə öz işlərimizi davam etdiririk". 1994-cü il sentyabrın 20-də Bakıdakı "Gülüstan" sarayında imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. Müqavilə müasir və qüdrətli Azərbaycanın təməlini möhkəmlətdi, ölkənin bu gününün və gələcəyinin uğurlu inkişafına yol açdı. 1994-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 aparıcı neft şirkəti arasında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsü ilə bağlı "Əsrin müqaviləsi" imzalandı. Daha sonra dünyanın 19 ölkəsini təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu saziş müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu və böyük uğurların qazanılmasında müstəsnalıq təşkil etdi.



### "ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCANI İNVESTİSİYALARA AÇIQ BİR DÖVLƏTƏ ÇEVİRDİ

Müqavilə müasir Azərbaycanın inkişaf perspektivləri baxımından, o cümlədən, iqtisadiyyatın dirçəldilməsi və şaxələndirilməsi prosesində olduqca mühüm rola malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir: "Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var".

2001-ci ildə Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə sentyabrın 20-si "Neftçilər Günü" kimi elan olunub. Hər il neftçilər öz peşə bayramlarını qeyd edirlər. Bu gün neftçilər üçün ikiqat bayrama çevrilib. Bu günü neftçilər həm "Əsrin müqaviləsi"ni, həm də peşə bayramı günü kimi qeyd edirlər.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinə əsaslanan strategiyanın möhtəşəm nəticələrinin şahidiyik. "Əsrin müqaviləsi" ölkədə misli görünməmiş bir iqtisadi inkişafa yol açdı və Azərbaycanı müasir enerji mərkəzinə çevirdi. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, "Əsrin müqaviləsi" Azərbaycanı investisiyalara açıq bir dövlətə çevirdi və xarici investorlar, bu layihə təsdiqini tapdıqdan sonra, sərbəst şəkildə ölkəmizə investisiya yatırmağa başladılar. 1994-cü ildən bu günə qədər ölkəmizə milyardlarla dollar həcmində xarici investisiyalar yatırıldı, neft sektorunun inkişafı isə, özlüyündə, qeyri-neft sektorunun da inkişafını təmin etdi. Digər tərəfdən, bu, iqtisadi inkişafın təməlinin qurulmasına imkan yaratdı. Məhz bu layihədən əldə olunan gəlir sayəsində, Azərbaycan vətəndaşlarının sosial təminatının yüksəldilməsi istiqamətində əsaslı addımlar atıldı və müxtəlif layihələr həyata keçirildi. Ölkədə sabitliyin yaranması isə yeni-yeni sahələr üzrə investisiyaların Azərbaycana cəlb olunmasına köməklik göstərdi. Bu da, nəticə etibarı ilə, ölkəmizdə regionların sosial-iqtisadi inkişafını və digər mühüm aspektləri özündə ehtiva edən genişmiqyaslı proqramların və konsepsiyaların reallaşmasına şərait yaratdı.

"Əsrin müqaviləsi"nə qədər Azərbaycan kifayət qədər yol gedib. Azərbaycan dövlətinin təbii sərvətlərinə sahib çıxmaq üçün atdığı addımlar "Əsrin müqaviləsi"ndə öz əksini tapıb. Dünyada təbii sərvətlərlə zəngin olan və onu dünya bazarına çıxaran dövlətlər çoxdur. Ancaq onlardan heç də hamısı uğur qazanmayıb. Uzaqgörən siyasətçi Ulu Öndər Heydər Əliyev "Əsrin müqaviləsi"ni imzalamaqla, yalnız Azərbaycan üçün deyil, region və Avropa üçün bir sıra problemləri həll etmiş oldu. Bu müqavilənin izalanması güclü Azərbaycanın əsasını qoydu. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan enerji siyasəti dünyanın ilk neft hasilatçılarından olan Azərbaycanı beynəlxalq enerji bazarlarında birbaşa iştirakçıya çevirdi. Nəticədə, enerji resursları ölkəmiz üçün yalnız dövlət gəlirlərinin artması mənbəyi deyil, həmçinin, ciddi geosiyasi alətə çevrildi. Azərbaycan, artıq dünya enerji təhlükəsizliyinə töhfə vermiş ölkələrdən sayılır. Qlobal arenada enerji təzhizatçısı kimi Azərbaycanın müstəqil beynəlxalq siyasət həyata keçirmə imkanları möhkəmləndi.

Azərbaycanın neft sənayesinin, ümumiyyətlə, iqtisadiyyatının inkişafında yeni dövrün əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanması ilə başlamış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. "Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxardı və bu gün "Əsrin kontraktı" bizim neft sənayemizin inkişafında öz rolunu oynayır", - deyə Azərbaycan Prezidenti bildirib. Dövlət başçısının fəaliyyəti nəticəsində, neft və qazın bir neçə kəmər vasitəsi ilə Azərbaycandan Avropaya çıxarılması təmin edilib. Azərbaycan üçün nə vaxtsa hər hansı bir kəmərdə təhlükə yaransa, hansısa bir hadisə baş verərsə, digər kəmər vasitəsi ilə təbii sərvətini xarici dövlətə çıxara biləcək. "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri dünyada bənzəri olmayan mühəndis qurğusudur. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir.



Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti nəticəsində, bu gün neft Azərbaycan xalqının rifahına xidmət edərək, ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilib. Bu müqavilə makroiqtisadi və sosial göstəricilərə öz təsirini göstərib. Tarixi reallıqlara, statistik göstəricilərə əsaslanaraq, deyə bilərik ki, neft gəlirləri nəticəsində, baş vermiş iqtisadi sıçrayış əhalinin gəlirlərinin artımasına, yoxsulluğun azaldılmasına və başqa sahələrdə irəliləyişə səbəb oldu. Ölkədə aztəminatlı ailələrin sosial təminatı gücləndirilib, təhsil və səhiyyə sektorlarında, xüsusilə də, infrastrukturun yenilənməsi, xidmət səviyyəsinin artırılması və bu sahələrdə çalışanların əmək haqlarının artırılmasına diqqət yetirilib. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan öz neft kapitalını insan kapitalına çevirir.

### "ƏSRİN MÜQAVİLƏSİNDƏN" "YENİ ƏSRİN MÜQAVİLƏSİ"NƏ DOĞRU

2017-ci ildə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edildi və yenidən tərtib olunmuş saziş imzalandı. Bu, "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövrün başlanması kimi qiymətləndirildi.

"Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Müqavilənin uzadılması gələcək üçün uzunmüddətli çiçəklənməni və sabitliyi təmin edəcək. Bu müqavilə Azərbaycan üçün daha da əlverişlidir. Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, 1994-cü ildə imzalanmış kontraktın bizim maraqlarımızı tam təmin etməsinə baxmayaraq, bu dəfə isə, daha yaxşı şərtlərlə kontrakt imzalanır. Həqiqətən də, ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. İyirmi səkkiz il ərzində Azərbaycan böyük yol keçmişdir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır: "Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə də hər hansı bir başqa maneə və ya problem yoxdur".

"Əsrin müqaviləsi"ndən "Yeni Əsrin müqaviləsi"nədək gedən yol Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu neft strategiyası əsasında reallığa çevrilib.

Azərbaycanın iqtisadi potensialının ən vacib komponenti olan neft amilinin düzgün idarə edilməsi 44 günlük Vətən müharibəsində özünü göstərdi. Azərbaycanın dünyanın hərbi baxımdan ən güclü dövlətlər sırasına çıxmasında məhz bu siyasətin düzgün qurulması həlledici rol oynadı. Ümummilli Lider Heydər Əliyev tərəfindən iqtisadi prioritetlərin düzgün müəyyən edilməsi və cənab İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirilməsi nəticəsində güclü iqtisadiyyatımız bizə müdafiə sənayemizin inkişaf edilməsinə şərait yaratdı, güclü Azərbaycan Ordusu formalaşdı. Bu ordu 30 ilə yaxın işğalda olan torpaqlarımızı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad etdi.

Ölkəmizin iqtisadi qüdrətinin, beynəlxalq nüfuzunun, xalqımızın firavan həyatının qarantına çevrilmiş uzunmüddətli enerji strategiyası bu gün də Azərbaycanın dinamik inkişafı ilə paralel irəliləyərək, bir-birindən parlaq zəfərlərə yol açır, neft-qaz sənayemizi daha yüksək zirvələrə aparır.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Mədəkiçiltmə əməliyyatı hansı fəsadlara səbəb olur?



**Köklükdən və artıq çəkidən xilas yolu olaraq görülən "mədəkiçiltmə əməliyyatı" tibb tarixinə daxil olanda heç də məqsədi bu deyildi. Əslində, mədəkiçiltmə əməliyyatının hekayəsi bir cərrahi əməliyyat prosedurunun inkişaf etdirilməsindən ibarət deyil, daha çox bir əməliyyat etapının zamanla fərqli bir əməliyyata çevrilməsidir.**

Qastroplastika əməliyyatlar və qastroezofageal reflyuks xəstəliyini aradan qaldırmaq üçün həyata keçirilən əməliyyatlar müşahidə edilmiş, nəticələr çıxarılmış, mədəkiçiltmə əməliyyatının aparılmasına başlanılmışdır.

İlk mədə kiçiltmə əməliyyatını 1988-ci ilin mart ayında Doug Hess həyata keçirib. Bundan sonra ard-arda aparılan 20 əməliyyatdan çıxan xəstələr 16 ay boyunca müşahidə altında saxlanıldı. Məlum oldu ki, itirilən artıq çəkilər kimisində 7, kimisində də 25 kqdır. Bəs, ümumiyyətlə mədəkiçiltmə əməliyyatı nədir? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Mədəkiçiltmə əməliyyatı mədənin cərrahi yolla kiçildilməsidir. Mədə həcmi azaldılaraq pasientin daha az qida ilə doyması nəzərdə tutulur. Həmçinin mədənin fundus adlandırdığımız dib hissəsi əməliyyat nəticəsində çıxarıldığı üçün fundusda ifraz olunan iştah hormonunun (grelin hormonu) səviyyəsi kəskin azalır, bu isə iştahanın azalmasına və tez doyma hissinin yaranmasına səbəb olur.







Kiçilən mədənin, təbii ki, nəticəsi olaraq insanlar əməiyyat sonrasında kilo itirir və özlərinə yeni həyat tərzı yaradırıar. Bu dəyişiklik insanların həm bədənsəl həm də psixoloji olaraq yaxşı yaşamasına səbəb olur. Baş ağrısı, yuxu problemləri, təzyiq, II tip şəkərli diabet kimi daha öncədən yaşanan rahatsızlıq və xəstəliklərin şiddəti azalır və ya tamamilə aradan qalxır.



## Əməliyyat necə icra edilir?

Digər bariatrik əməliyyatlarda olduğu kimi sliv gastrektomiya da laparoskopik dediyimiz qapalı üsulla icra edilir. Əməliyyat təxminən 0,5 santimlik 5,bəzən 6 ədəd kiçik dəliklərdən icra edilir (mədə çıxarılan dəlik təxminən 2 sm-dir). Sliv gastrektomiya əməliyyatında birdəfəlik istifadə olunan xüsusi alətlərlə (stepler) mədə kəsilib tikilir və daha sonra xüsusi sapla kəsik boyu yenidən tikilir. Kəsildikdən sonra mədənin təxminən 75-80% lik hissəsi çıxarılır. Əməliyyat nəticəsində qalan mədə banan şəklində bir borunu xatırlatdığı üçün əməliyyat boruvari rezeksiya adlanır.

Əməliyyat sonrası ağrının az olması, tikişlərin kiçik, kosmetik və görünməz olması, həmçinin çox tez normal həyata qayıdış, ən əsası isə artıq çəkinin uğurlu şəkildə itirilməsi əməliyyatı fərqləndirən xüsusiyyətlərdir. Bu əməliyyat hansı hallarda, hansı şəxslərə tətbiq olunur? İstənilən şəxsdə bu əməliyyat həyata keçirilə bilərmi? Artıq çəkidən xilas olmaq üçün bu əməliyyatı tərcih edənləri əməliyyat zamanı, həmçinin gələcəkdə hansı risklər, problemlər, fəsadlar gözləyir?

Mədəkiçiltmə əməliyyatını cərrahlar tətbiq edir. Təbii, bütün əməliyyatların riski var. Bu əməliyyatda isə risk appendisit əməliyyatında olan risk qədərdir. Sadəcə peşəkar həkim olarsa, düzgün əməliyyat aparılarsa, heç bir problem olmaz. Eyni zamanda xəstədən də çox şey asılıdır. Xəstə daşıdığı bütün xəstəliklər barədə əməliyyatdan öncə həkimə bildirməlidir. Həkimin bilmədiyi hər hansı problem olarsa, bu, sonradan böyük problemlərlə, hətta ölümlə belə nəticələnə bilər. Azərbaycanda olmasa da, Türkiyədə əməliyyat zamanı xəstə ölüb

Bu gün mədəkiçiltmə əməliyyatına estetik cərrahiyyə kimi baxılır. Amma bu, belə deyil. Bariatrik əməliyyatın məqsədi xəstələri şəkərli diabet, piylənmə, cinsi zəiflik, oynaq ağrıları, qan təzyiqi kimi xəstəliklərdən qurtarmaqdır. Bir sözlə, piylənmədən əziyyət çəkən xəstələrin normal həyat tərzinə geri dönmələri üçün edilən əməliyyatdır.

Mədəkiçiltmə əməliyyatının riskləri barədə terapevt-qastroenteroloq Mətanət Cəfərova öz fikirlərini bölüşüb: "Təəssüf ki, mədə kiçiltmə əməliyyatı ilə bağlı maarifləndirmə çox aşağı səviyyədədir. Çoxu bunu sırf arıqlamaq üçün edilən əməliyyat kimi başa düşür. Hətta həddən çox kilosu olmayan belə, bu əməliyyata qaçır, nəticədə tez də olmasa, sonradan onun fəsadlarıyla qarşılaşır. Əslində isə bu əməliyyatı morbid piylənməsi olanlar etdirə bilər. Morbid piylənməsi ölümcül piylənmə deməkdir. Yəni piylənmə həddi o qədər yüksəkdir ki, ürək çatışmazlığı və digər fəsadlar verərək, xəstəyə həyati təhlükə yaradır. Həmin şəxs tez bir zamanda piylənmədən qurtulmalıdır ki, ölməsin. Azərbaycanda o formada piylənmədən əziyyət çəkən insanlar isə barmaqla sayılacaq qədərdir. Bu hal daha çox ABŞ-da müşahidə olunur, nəinki Avropa və Asiya qitəsində. Artıq bədən çəkisindən (piylənmə öncəsi) əziyyət çəkən, 1-ci və 2-ci tip piylənməsi olan şəxs bu əməliyyatı etdirdikdə həddən artıq arıqlaya bilər. Eyni zamanda orqanizmdə mübadilə prosesinin pozulmasına, vitamin-mineral kompleksinin mənimsənilməsində problemə, ümumi müqavimətin azalmasına səbəb olar. O ki qaldı mədəkiçiltmə əməliyyatının mədə xərçənginə səbəb olmasına, bəli, ola bilir. Ümumiyyətlə, mədə xərçənginin yaranma risklərindən biri də əməliyyat olunmuş mədədir. Əməliyyat olunmuş mədə bir müddət sonra da olsa, öz fəsadını verəcək. Bunu mən yox, tibbi protokollar deyir. Sağlam, bütöv mədəsi olan insanla müqayisədə əməliyyat olunmuş mədəsi olan insanlarda xərçəngə daha çox rast gəlinir. Odur ki, insanlar göstəriş olmadan mədəkiçiltmə əməliyyatına getməməməlidirlər".

"Mədəkiçiltmə əməliyyatlarından sonra xərçəng" mövzusuna tez-tez toxunulur. Məsələn, bəzi adamlar deyir ki: "Mədəkiçiltmə sonrası xərçəng oldum" və ya "Mədəkiçiltmə sonrası bu mədə xərçənginin vəziyyəti necə ola bilər?"

Ümumiyyətlə, dünyada siqaretdən sonra xərçəngin ən böyük risk faktorlarından biri piylənmədir. Bir insan obezdirsə, piylənmədirsə, onsuz da, bu, siqaret çəkən qədər xərçəngə risk faktorudur.

## Bu əməliyyatlardan sonra arıqlama varsa, xərçəngə çevrilə bilərmi?

Bu heç vaxt isbatlanmamış və bu əməliyyatla xərçəng arasında heç bir kəsişmə, hər hansı bir yolda uyğunlaşma yoxdur. Sadəcə məsələ nədir? Bu əməliyyatlardan öncə, bəli, xəstə çox ciddi şəkildə "tarama" dediyimiz - "skrininq" dediyimiz müayinələrdən keçməlidir. Yəni ki, tutaq ki, süd vəzisi yoxlanılmalıdır, tiroidi yoxlanılmalıdır, uşaqlığı yoxlanılmalıdır, qaraciyəri yoxlanılmalıdır, mədəsi, təbii ki, yoxlanılmalıdır. Mədəkiçiltmə əməliyyatı piylənmənin, artıq çəkinin müalicəsində effektiv cərrahi bir metoddur, uyğun xəstələrdə icra edilməlidir və xəstənin arıqlamasına çox ciddi şəkildə fayda sağlamaqdadır.

Bütün cərrahi əməliyyatlar kimi, mədəkiçiltmə əməliyyatına girməzdən öncə xəstələr ehtiyatlı olmalı, müəyyən analizlərdən və müayinələrdən keçməlidir. Bunun üçün mütləq mütəxəssislə məsləhətləşməli, onun nəzarəti altında əməliyyata hazırlaşmalı, nəticələr uyğun olarsa əməliyyata girməlidir.

*Ləman Sərraf*

# “Biz bu qələbəni onlara borcluyuq”







“Ermənistanın Respublikasının ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə və işğal siyasətinə cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı. 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində işğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad olundu”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, Milli Ordunun rəşadəti, xalq və dövlətin birliyi ilə 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazanılan Zəfər Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri kimi yaddaşlara yazıldı: ”Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-nin Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alındı.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı ”Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” sərəncama əsasən qeyd edilir. Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur”.

Deputat sözlərinə davam edərək bildirib ki, 27 sentyabra qədər olan dövr xalqımız üçün çətin və mürəkkəb oldu: ”Xalqımız çox əziyyətlər çəkdi, ancaq sınmadı, əyilmədi. Biz müharibədə təkcə Ermənistana yox bütün zalimlərə qalib gəldik. Azərbaycan xalqının böyüklüyünü bütün dünyaya nümayiş etdirdik. Xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlılar hər gün döyüşləri izləyir və Azərbaycanın uğurlarına sevinirdilər. Xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının ürəyi 44 gün ərzində tarixi Vətəni ilə bir döyünürdü.

1905, 1918 və 1988-ci illərdə də ermənilər bu cür cinayətləri müxtəlif formalarda törətmişdilər. Məşhur bir ifadə var: ”Tarix təkrarlanır”. Bəzən tarix o zaman təkrarlanır ki, ondan nəticə çıxarılmır. Bu anım gününün təsis olunması və hər il qeyd olunması bu vəhşiliklərin və təxribatların unudulmaması baxımından xüsusi əhəmiyyət daşıyır. 30 il ərzində Ermənistan işğalçı siyasətini davam etdirməkdən, ərazilərimizdə təxribatlar törətməkdən əl çəkmədi”.

C.Məmmədov xatırladıb ki, 30 il ərzində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün həyatı sürməyə məcbur olmuşdur: ”Torpaqlarımızın işğalı azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin iqtisadiyyatına və mədəni irsinə də ağır zərbə vurmuşdur. Ermənistan bu müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərini acınacaqlı vəziyyətə salmış, şəhər və kəndlərdə infrastrukturu tamamilə məhv etmişdir.

Azərbaycan xalqı işğalla heç zaman barışmadı. 2016-cı il aprel ayında Lələtəpə və 2020-ci il iyul ayında Tovuz döyüşləri zamanı Azərbaycan bu işğalla barışmayacağını nümayiş etdirdi. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmadı, erməni siyasətçiləri xalqımıza qarşı aşağılayacı və təxribatçı bəyanatlar verdi. 2020-ci il 27 sentyabr tarixində atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhə boyu Azərbaycan silahlı qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladılar. Nəticədə, hərbi qulluqçular ilə yanaşı Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olmuşdur.

Məhz bu cür təxribatlar Azərbaycan xalqının səbir kasasını doldurdu. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri vermişdir. Vətən müharibəsi nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu. 44 gün ərzində bizə ən böyük dəstək verən ölkə qardaş Türkiyə olmuşdur. Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz dəstəyini göstərdilər.

Vətən müharibəsi dövründə, eləcə də ondan əvvəlki dövrdə Türkiyə daim Azərbaycanın yanında oldu. Ölkəmizə həm siyasi, həm də mənəvi dəstək göstərdi. Türkiyə rəsmiləri dəfələrlə Azərbaycana səfər edərək ciddi dəstəklərini ifadə etdilər. Azərbaycan bu dəstəyi yüksək qiymətləndirir və heç zaman unutmaycaq. 2020-ci ildən bu günə qədər olan dövrdə Azərbaycan keçmiş münaqişənin dinc yolla həll olunması üçün çox çalışdı. Dəfələrlə müxtəlif platformalarda görüşlər keçirildi, bəyanatlar verildi”.

O qeyd edib ki, ötən dövrdə Azərbaycan üzərinə götürdüyü bütün öhdəlikləri dəqiq yerinə yetirdi: ”Ermənistan isə davamlı olaraq sülh təşəbbüslərinə mane oldu, Azərbaycana qarşı təxribatlar törətdi, mina xəritələrini təqdim etmək əvəzinə, ərazilərimizdə yeni minalar basdırdı. Ermənilər müxtəlif bəhanələr gətirərək həmin xəritələri bir müddətdir Azərbaycana verməkdən imtina edir, daha çox Azərbaycanlının bu minalar nəticəsində həyatlarını itirmələrinə nail olmağa çalışırdılar. Ancaq onların bu arzusu Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, diplomatik səylər nəticəsində iflasa uğradı. Azərbaycan zamanla qarşısına qoyduğu bütün məqsədlərə nail olacaq. Baş verən son hadisələr bu fikri bir daha təsdiq edir.

Xəritələrin əldə edilməsi işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin sürətlə aparılmasına şərait yaradacaq. Artıq bölgədə ciddi quruculuq işlərinə başlanılıb. Qısa müddətdə bu ərazilərdə həyat öz axarına qayıdacaq. Eyni zamanda, minaların xəritəsinin Azərbaycana verilməsi onların aşkarlanması üçün sərf olunan xərclərin azaldılmasına gətirib çıxaracaq. Burada ən vacib məsələlərdən biri də xəritələrin əldə edilməsinin insan itkisinin qarşısının alınmasında əhəmiyyətli rol oynamasıdır.

Fikirlərimin sonunda bir daha qeyd etmək istəyirəm ki, biz bir xalq olaraq, ölkə olaraq bbundan sonra da bir olmalı, növbəti erməni təxribatlarına hazır olmalı və dərhal onun qarşısını birlikdə almalı, şəhidlərimizin canı, qazilərimizin qanı bahasına azad olunan torpaqlarımızda yeni həyat qurmaq üçün əlimizdən gələni əsirgəməməli, bir vətəndaş olaraq üzərimizə düşən missiyanın öhdəsindən layiqincə gəlməliyik..

Cənab prezidentimizin də dediyi kimi: ”Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib”. Allah bütün şəhidlərimizə rəhmət etsin!”.

***Ləman Sərraf***



AFƏT

## Axı niyə bütün dünya Ermənistana kömək etməliymiş?

***Budur, Ermənistanın növbəti ümid çiçəkləri çırtladı - Samanta Pauer və ABŞ administrasiyasının nümayəndələri İrəvana gəlməklə ermənilərin ”xilaskarlarına” çevrildilər. İndi Paşinyan komandasının işi təqribən bundan ibarət olacaq: siz (yəni ABŞ) Azərbaycana qarşı sanksiyalar tətbiq etməli, Azərbaycanın nefti və qazı alınmamalıdır. Üstəlik, fransızlar və amerikalılar daxil, beynəlxalq sülhməramlılar regiona təşrif buyurmalıdırlar. Yəni, hər kəs, bütün dünya Ermənistana borcluymuş...***

### Ümumiyyətlə, siz hansı əhəmiyyətə maliksiniz?

Ancaq belə bir sual yaranır, axı Qərb Azərbaycan əleyhinə sizə nəyə görə kömək etməlidir? Yaxud, hansı xidmətlərinizə görə onlar sizə borcludurlar? Ümumiyyətlə, siz hansı əhəmiyyətə maliksiniz? Balaca və zəngin olmayan, üstəlik, KTMT və Avrasiya İqtisadi İttifaqında sıxılıb-qalan ölkə...

Rəsmi olaraq Qərbə qarşı əks mövqedə dayanan təşkilatlar! Ola bilər ki, Rusiyanı və Türkiyəni qıcıqlandırmaq üçün ermənilərə ”xalaxətrin qalmasın” tipli nə isə deyə bilərlər, amma bu da boğazdan yuxarı verilən bəyanatlar kimi anlaşılır. Belə də ki, Ermənistan Qərbin nə iqtisadi, nə də hərbi müttəfiqi deyil. Üstəlik, heç bir siyasi dairə deyə bilməz ki, Azərbaycan ictimaiyyəti son 28 ildə ”Rusiya bizə kömək etməli, Qərb işğalçıları çıxarmalı, Türkiyə isə bizim yerimizə döyüşməlidir”.

### Məsələ də ondadır ki, heç vaxt xarici ölkələrdən kömək istəməyən Azərbaycandan fərqli olaraq...

Əksinə, Azərbaycan hər zaman deyib ki, Qarabağ məsələsində Rusiya da, Qərb də maraqlarımıza qarşı olublar. Hətta qardaş Türkiyədən, habelə dost İsraildən belə silahları öz pulumuzla almışıq. Təbii ki, iqtisadi qüdrətinin sayəsində. Eyni zamanda, siyasi dəstəyimizi də bu və bu kimi digər ölkələrlə əlaqələrimizi möhkəmləndirməklə qazanmışıq - öz gücümüzlə!

Bax, məsələ də ondadır ki, heç vaxt xarici ölkələrdən kömək istəməyən Azərbaycandan fərqli olaraq Qərb ermənilərin ”gözəl gözlərinə” görə uzağı boş bəyanatlar verəcək. Və ya Qərb heç vaxt Ermənistana görə regional gücdən beynəlxalq gücə çevrilmiş Azərbaycanla münasibətini pozmayacaq. Hətta düşmənçilik və qərəzçilik mövqeyindən çıxış edən Samanta Pauer və digərləri də!

# Qarabağ xuntasının sonu və bunun strateji nəticələri

### Rus analitikin təhlili

Siyasi elmlər doktoru Sergey Boqdan "Caliber" analitik mərkəzi üçün yazdığı məqalədə Qarabağda gedən prosesləri dərin təhlil edib. Məqaləni kiçik ixtisarla oxucularımıza təqdim edirik. Azərbaycan Silahlı Qüvvələrinə Qarabağ bölgəsində silahlı separatçıların qalıqlarını təslim olmağa məcbur etmək üçün cəmi bir gün vaxt lazım oldu. Onlar bu tapşırığı çoxdan yerinə yetirəcəkdilər, lakin insan itkiləri daha çox ola bilərdi. Strateji dözümlülük və erməni millətçilərinə qarşı durmadan artan təzyiq öz bəhrəsini verdi.





Strateji baxımdan bütün Cənubi Qafqazın konfiqurasiyası kökündən dəyişib. Ermənistan nəhayət, Qorbaçovun Qarabağ separatizmi layihəsinin külünü silə və qonşuları ilə əməkdaşlıq edərək normal dövlət qurmağa başlaya bilər. Bunun yeganə alternativi intihar münaqişəsi və deqradasiyadır.

### Oyun bitdi

Ötən həftə baş verən hadisələr Ermənistan cəmiyyətində ərazi ekspansiyasının tərəfdarlarını ayıltmalıdır. Azərbaycan Silahlı Qüvvələrinin separatçı silahlı birləşmələrin zərərsizləşdirilməsi istiqamətində həyata keçirdiyi antiterror tədbirləri Ermənistan rəhbərlərinin revanşist əhval-ruhiyyəsinin artdığı və beynəlxalq intriqalarının danışıqlar yolu ilə separatçı strukturların ləğv ediləcəyinə dair Bakının son ümidini puça çıxardığı şəraitdə başlayıb. Azərbaycan hərbçilərinin və mülki şəxslərin minaya düşüb həlak olması Bakının səbrini daşırdı.

Ermənistandan tədarük və rotasiya yollarının bağlanması erməni millətçilərinin mina müharibəsinə daha böyük üstünlük verməkdən başqa çarəsi qalmadı. Bu, onların 2020-ci ilə qədər tətbiq etdikləri köhnə taktika idi- işğal olunmuş torpaqları müdafiə etməyə gücləri çatmayıb, minalayıblar. Son aylarda separatçılar, şübhəsiz ki, heç nəyə qadir deyildilər, amma nəyin bahasına olursa olsun, sağ qalmağa can atırdılar- Ermənistanda daha revanşist düşüncəli qüvvələrin hakimiyyətə gəlməsini və beynəlxalq siyasi vəziyyətin dəyişməsini gözləyirdilər. Onlara elə gəldi ki, hesablamaları haqlı ola bilər.

Bu ay Ermənistan paytaxtında keçirilən seçkilər həqiqətən də Paşinyanın gücünün sarsıldığını göstərdi. Düzdür, onun partiyası uduzmadı, amma İrəvanı müxalifətin iştirakı olmadan idarə etmək imkanını itirdi. Bu, qismən seçici fəallığının aşağı olması ilə bağlı idi. Ümumiyyətlə, radikal revanşistlərin hakimiyyətə qayıtma ehtimalı üfüqdə görünürdü. Sonuncular artıq avqustun 9-da David İşxanyanın daşnak separatçılarının "parlament"inə sədr seçilməsi ilə separatçı strukturlarda mövqelərini möhkəmləndirərək Ermənistanda hakimiyyətə gəlmək üçün tramplini genişləndirməyə başlayıblar.

Paşinyanın zəifləlilməsi problemi ABŞ-la birgə keçirilən hərbi təlimlərin Ermənistan siyasəti üçün mümkün nəticələri ilə daha da ağırlaşdı. Birgə təlimlər revanşistlərə ümid verdi ki, amerikalılar regionda erməni oyununa cəlb olunacaq və Qarabağ rejimi xilas ola bilər, əsas o idi ki, onun vaxtından əvvəl batmasına imkan verməsinlər.

### Separatçılar və daşnaklar Paşinyana ov mövsümü açıblar

Hər şey rejimin batmaq üzrə olduğunu göstərirdi, çünki Azərbaycan tərəfi 2020-ci il müharibəsinin nəticələrini təkrarlamaq üçün bu sadə və aşkar cəhdlərdən artıq bezmişdi. Bakının buna son qoyacağı bəlli idi. Separatçıların günlərinin sayılı olduğu məlum olanda və Bakı terrorla mübarizə tədbirlərinə başlayandan dərhal sonra Ermənistan rəhbərliyi Qarabağ rejiminin müdafiəsinə qalxmaq niyyətində olmadığını bəyan edərək onlardan uzaqlaşdı. Təəccüblü deyil, çünki onlar Paşinyandan əvvəlki dövrlərin korrupsiyası və mafiyası ilə bağlıdırlar. Ermənistanın baş naziri hələ bir neçə həftə əvvəl öz mövqeyini açıq şəkildə ortaya qoymuşdu. O, separatçıların yeni lideri Samvel Şaxramanyanı sentyabrın 9-da "seçilməsi" münasibətilə təbrik etməyib və hətta əlavə edib ki, "təbrik etmək üçün xüsusi bir şey yoxdur". Ermənistan rəhbərliyindən də heç kim təbrik göndərməyib. Amma Şahramanyanı indiki Ermənistan rəhbərliyinin revanşist ünsürlərdən olan, Paşinyanın tanınmış düşmənləri - Ermənistanın keçmiş liderləri Robert Köçəryan və Serj Sarkisyan, Qarabağ separatçılarının keçmiş liderləri Arkadi Qukasyan və Bako Saakyan təbrik ediblər.

Ermənistanın Müstəqillik Günündə (21 sentyabr) Paşinyan öz soydaşlarına müraciət edib, burada Qarabağ separatçılarından bir söz deməyib, Azərbaycanın sərhədlərinin toxunulmazlığını təsdiq edən 1991-ci il Almatı bəyannaməsinə diqqət çəkib. Təbii ki, revanşistlər Azərbaycan ordusunun anti-terror əməliyyatlarına başlamasından sonra bir dəqiqə də vaxt itirməyərək Ermənistanda sabitliyi pozmağa başladı. Lakin nümayişlərin miqyası təsiredici deyildi, həftəsonuna qədər cəmi 100-ə yaxın adam saxlanılıb.

Amma müxalifətçilər canfəşanlıq edərək ehtirasları alovlandırdılar- məsələn, cümə axşamı Azərbaycan ordusunun Xankəndinə daxil olması ilə bağlı təxribat xarakterli xəbərlər yayıldı. İrəvandakı iğtişaşlar nəticəsində saxlanılanlar arasında köhnə rejimin zadəgan ailələrinin nümayəndələri, məsələn, Ermənistanın keçmiş prezidenti Köçəryanın oğlu və və erməni milyarder Stepanyanın oğlu da var.

### Qələbə və ehtiyatlılıq

Lakin erməni cəmiyyətini revanşist "Maydan"a qaldırmaq asan deyil. Buna həm də Qarabağda antiterror tədbirlərinin minimal itkilərlə aparılması da kömək edib- CNN üçün heç bir şəkil yoxdur. Hətta Ruben Vardanyan da etiraf edib ki, Azərbaycan ordusu məsələyə diqqətlə yanaşıb: "Onlar post almağa çalışırlar. Onlar Stepanakertə girmirlər... sakinlər əsasən bomba sığınacaqlarındadır".

Uğur qazanan Bakı lüzumsuz triumf nümayişlərindən çəkinərək Qarabağ üzərində tam suverenliyini bərpa edən növbəti böyük qələbə qazandı. Ekstremist qüvvələr qoşunların Xankəndinə təntənəli daxil olmasından istifadə edərək bu bayramı qanlı təxribatlarla korlaya bilərdilər. Artıq cümə günü Qərb mediası, xüsusən də Fransa mediası Qarabağda "erməni Srebrenitsası"ndan danışmağa başlayıb, 1990-cı illərdə Bosniyada baş verən qırğınların təkrarlanmasına eyham vurub.

Bakı yəqin ki, bu cür təxribatların təhlükəsini qabaqcadan görürdü. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib ki, separatçı silahlı birləşmələrin üzvlərinə amnistiya verilməsi, müvafiq şəxslərin silahı yerə qoyması şərti ilə artıq bitmiş sövdələşmədir: "Hətta keçmiş hərbi qulluqçular və döyüşçülər üçün də,- belə təsnifat verməkolarsa,- amnistiya veririk".

Bundan əlavə, cümə axşamı Yevlaxda Qarabağ bölgəsinin erməni əhalisinin və mərkəzi hökumətin nümayəndələrinin görüşü keçirildi.

### Fransız dalanı

Bakının təmkinli addımları və Azərbaycan hökumətinin əvvəlki illərdəki diplomatik hazırlığı sayəsində erməni millətçilərinin xarici qüvvələri öz müdafiələrinə səfərbər etmək cəhdləri baş tutmadı. Cümə axşamı axşam saatlarında Fransanın təşəbbüsü ilə çağırılan BMT Təhlükəsizlik Şurasının Qarabağdakı vəziyyətlə bağlı fövqəladə iclası keçirilib. Fransa və Almaniyanın xarici işlər nazirləri, həmçinin Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Borreldən başqa heç kim Azərbaycan hökumətinin ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində fəaliyyətini tənqid etməyib. Bununla belə, Almaniyanın mövqeyi daha çox Xarici İşlər Naziri postunu tutan Yaşıllar Partiyasının nümayəndəsi Barbokun radikal kursu ilə bağlıdır. Beləliklə, Almaniyadan separatçılara dəstək çox şərti idi.

Nüfuzlu "Ekonomist" (London) nəşri cümə axşamı bildirib: "Heç kim Azərbaycanın yolunda dayanmaq istəmir. Qərb dövlətləri əsasən bir-biri ilə rəqabət aparır, rutin pisləmələr verir. Azərbaycanla uduzacağı böyük müharibəyə cəlb olunacağından qorxan Ermənistan münaqişədən kənarda qalmaq istəyir. Küləyi yatırdan sükut isə Bakının keçirdiyi əməliyyata Rusiyanın reaksiya verməməsi idi". Bununla belə, Ermənistanın hazırkı rəhbərliyi üçün başqa bir cəhət daha vacibdir- ölməkdə olan separatçı rejimin tüstü pərdəsi altında olan Ermənistan üçün nəhayət, "Qərbə getmək" imkanı. Cümə axşamı Paşinyan Moskvanı tənqid edərək, dünya birliyini "Rusiya sülhməramlı qüvvələrinin Qarabağda törətdiyi uğursuzluqlara göz yummamağa" çağırıb.

Konkret olaraq, o, sülhməramlı qüvvələri Qarabağdakı rejimin təchizat marşrutlarını ("Laçın dəhlizi") saxlaya bilməməkdə və ermənilərin hazırkı məğlubiyyətində ittiham edib. Paşinyan teatral şəkildə qəzəbləndi: "Bu son qığılcım niyə baş verdi? Əgər sülhməramlılar atəşkəsi razılaşdırırdılarsa, niyə hücumdan əvvəl bunu etmədilər və Qarabağa hücum olduqdan sonra etdilər?" Görünür, Paşinyan əvvəldən Rusiyanın müdaxiləsini çox da istəmirdi.

Paşinyanın problemi ondan ibarətdir ki, Qərb onu qəbul etməyə tələsmir. Əslində, Ermənistan yalnız Fransanın qanadı altında "Qərbə gedə bilər"- açıq-aydın gücü gözümüzün qabağında əriyən Paris isə "kollektiv Qərb"in ən güclü üzvü deyil. Bundan əlavə, Fransanın Yerevanın yaxınlaşmaq istədiyi ABŞ-la ənənəvi olaraq problemli münasibətləri olub. Başqa sözlə, Ermənistan rəhbərliyinin bu "Qərbə gedişi" şübhəli ideya kimi görünür. Ola bilsin ki, bu, Fransanın Aİ-nin imkanlarından istifadə edə biləcəyi haqda təsəlli verir. Lakin son hadisələrə görə, konsensusun olmaması səbəbindən Aİ bəyanatları belə qəbul edə bilmədi və Aİ-nin Ali Nümayəndəsi Jozef Borrel sənədi sadəcə öz adından dərc etməli oldu! Burada onu da əlavə etmək lazımdır ki, Aİ hərbi baxımdan hətta cırtdan da deyil, sadəcə olaraq saxtakardır və buna görə də İrəvan növbəti geosiyasi çıxılmaz vəziyyətdədir. Bundan yalnız bir çıxış yolu varbu, Azərbaycan və Türkiyə ilə normal mehriban qonşuluq münasibətlərinə qayıtmaqdır.

### Azərbaycan rəhbərliyinin şahmat taxtası

Buna Qarabağın tam şəkildə Azərbaycana reinteqrasiya edilməsi, erməni millətçi təbliğatının nəticələrinin aradan qaldırılması kömək edəcək. Lakin bu, Azərbaycan dövlətinin gündəmində olan növbəti aşkar vəzifələrdən yalnız biridir. Onların arasında ilk növbədə Azərbaycan ərazisinin daha sıx birləşdirilməsi məsələsini qoymaq məntiqlidir.

Axı Ermənistandan keçən dəhlizdən danışarkən Bakı müasir Ermənistan Respublikasının ərazisinə müdaxilə etmir, sadəcə olaraq Naxçıvanla Azərbaycanın qalan hissəsi arasında daha rahat əlaqə üçün marşrutları bərpa etmək istəyir. Bəli, 1990-cı illərin əvvəllərində erməni millətçilərinin təcavüzündən sonra erməni yollarına əvəz tapıldı (İran yolu), lakin aydındır ki, Naxçıvanla Azərbaycanın qalan hissəsi arasında Ermənistan ərazisindən keçən kommunikasiya yollarının bərpası, şübhəsiz ki, hamının xeyrinə olacaq.

Qarabağ separatizminin ləğvi məsələsində olduğu kimi, İrəvan bu cür transformasiyaların tarixi qaçılmazlığı ilə razılaşıbrazılaşmamağı seçə və Ermənistana strateji çıxılmaz vəziyyətdən çıxmaq və inkişafa başlamaq imkanı verəcək prosesin bir hissəsinə çevrilə bilər. Əgər indi razılaşmırsınızsa, çox güman ki, Qarabağ məsələsində olduğu kimi, onun nəticəsi ilə daha sonra, lakin daha pis şərtlərlə razılaşmalı olacaqsınız.

Məsələ ondadır ki, son hadisələr regionda qüvvələr balansında yekun dəyişikliyə gətirib çıxaracaq. Bu, xüsusən də strateji dərinlik kimi konsepsiyaya aiddir. Məhz strateji dərinlik mülahizələri erməni millətçilərinin ələ keçirdikləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə bitişik 7 rayonu nə üçün sona qədər saxladıqlarını izah edir, baxmayaraq ki, nə inkişaf etdirə, nə də müdafiə edə bilmədilər- yalnız minalaya bildilər. Xəritəyə nəzər salaq: Ermənistan SSRİ-nin ən kiçik respublikası (29800 kv.km) idi. Separatçılar 1994-2020-ci illərdə 13300 kvadrat kilometr ərazini işğal altında saxlayıblar.

İrəvan isteblişmentinə qanlı Qarabağ avantürasının başa çatdığı aydınlaşsa, bu, istər-istəməz erməni yanaşmalarının struktur transformasiyasına və qonşuları ilə qarşılıqlı anlaşmaya daha çox hazır olmağa gətirib çıxaracaq. Axı belə konfiqurasiyaya malik Azərbaycan və Türkiyə ilə döyüşmək sadəcə olaraq intihardır. Söhbət bunun qaçılmazlığından gedir. Dünyanın heç bir regionunda olmadığı kimi, Cənubi Qafqazda da mehriban qonşuluq və birgə inkişafın alternativi yoxdur.

***Tərcümə - Elçin Bayramlı***



# Ermənistanda mitinqlər və “rus agenti”

*Azərbaycan Qarabağın gələcəyini müəyyən edir*



***Erməni millətçiləri 30 ildə əkdiklərini indi toplamaqdadırlar. ”Miatsum”la silahlanan ”Krunq”çuların başlatdığı və əsasən də Azərbaycanın torpaqlarını zorla, silahlı, təcavüz yolu ilə ələ keçirməyə çalışan xain, millətçi-daşnak kafalı ermənilərin vəhşilikləri 20 faiz ərazimizin işğalı ilə nəticələnmişdi. Arxalarını Qərb ölkələrinə söykəmiş qorxaq ermənilər məhz sahiblərinin tasmasına güvənib üstümüzə ayaq açmışdılar. Bəşər tarixinin görmədiyi, kitabların yazmadığı vəhşilikləri, vandallıqları törədirdi ermənilər. Amma bir şeyi unudurdular, zaman tərsinə dönə bilər, yaxud Azərbaycan bütün bunların bədəlini ödətdirə bilər.***

Bu gün Azərbaycan tarix yazır, həm də bəşəriyyətə dərs verə-verə. Xalqımız 30 illik müharibədə on minlərlə şəhid verib, torpaqlarını itirib, amma sınmayıb, mənliyini itirməyib, haqq-ədalətin qələbə qazanacağı günü gözləyib. Erməni vəhşiliklərinə, vandallıqlarına, yırtıcı xislətinə baxmayaraq bu gün Azərbaycan erməni sakinlərlə çox humanist davranır. Qarabağda yaşayan ermənilərə reinteqrasiya təklif edir, ”qanunlarımızı qəbul edin, hüquqlarının ən yüksək səviyyədə tanınacaq, digər etnik xalqlar kimi Azərbaycanda normal şəkildə yaşayacaqsınız”, deyir. Son tədbirlərdən sonra erməni sakinlərin nümayəndələri ilə artıq ikinci görüş keçirilib və onların problemlərinin həlli müzakirə edilib. Buna baxmayaraq separatçıların sadə ermənilər üzərində uzunmüddətli təsirini, basqısını görməmək mümkün deyil. Nə isə, gedəni saxlamaq olmaz

İrəvan məhkəməsi bazar ertəsi Xocalı qətliamının təşkilatçısı, Ermənistanın eks-prezidenti Robert Köçəryanın oğlu Levonu bir ay müddətinə həbs edib. O, dörd polis əməkdaşını döyməkdə ittiham olunur. Hüquqşünaslar ”erməni Femidası”nın qərarını hüquqi qanunsuzluq adlandırıblar. Məsələ burasındadır ki, sentyabrın 22-də Levon həbsdə olarkən aldığı kəllə-beyin travması ilə xəstəxanaya yerləşdirilmişdi. Həkimlər eksprezidentin oğlunun vəziyyətini orta ağır kimi qiymətləndirirlər.

Xatırladaq ki, Ermənistanda etirazlar sentyabrın 19-da Azərbaycanın Qarabağda antiterror əməliyyatı ilə eyni vaxtda başlayıb. Müxalifət respublikanın baş naziri Nikol Paşinyanın hakimiyyətdən uzaqlaşdırılması üzrə fəaliyyətləri əlaqələndirən ”milli komitə” yaradıb. Hökumət başçısının özü iddia edir ki, onun opponentləri Moskvaya eyham vurmaqla yanaşı, İrəvana qarşı hibrid müharibədə iştirak edirlər.

Bununla bağlı Moskva bəyan edib ki, Ermənistanın baş naziri özünə rəddən başqa heç nəyə səbəb olmayan qəbuledilməz hücumlara yol verir. Departamentin açıqlamasında deyildiyi kimi, Paşinyan daxili və xarici siyasətdəki uğursuzluqlara görə məsuliyyəti özündən Moskvaya keçirməyə çalışır. Eyni zamanda, Rusiya həmişə müttəfiqlik öhdəliklərinə sadiq qalıb və erməni dövlətçiliyinə hörmətlə yanaşıb.

Ermənistan Daxili İşlər Nazirliyinin məlumatına görə, sentyabrın 25-də günorta saatlarında 168 etirazçı saxlanılıb. Eyni zamanda, təhlükəsizlik qüvvələri fəalları küçədə boğmaq və döymək də daxil olmaqla, onlarla çox sərt rəftar edirlər. Ermənistan Daxili İşlər Nazirliyinin rəis müavini Aram Hovhannisyan belə media nəşrlərini jurnalistlərin xəstə təxəyyülünün bəhrəsi adlandırıb. Onun fikrincə, polis mütənasib zorakılıqdan istifadə edir.






Paşinyanın əleyhdarları İrəvanda küçələri bağlamağa və şəhərlər arasında yolları bağlamağa çalışırlar, lakin indiyədək ölkənin nəqliyyat kommunikasiyalarını iflic edə bilməyiblər. Onların fəaliyyəti əsasən Ermənistan paytaxtının mərkəzində cəmləşib. Bu arada Ermənistan xüsusi xidmət orqanları ölkədə hakimiyyəti ələ keçirmək planının aşkarlanması barədə məlumat yayıb. Təhlükəsizlik rəsmilərinin bildirdiyinə görə, çevrilişi ”Səlibçilər” hərbi-vətənpərvərlik cəmiyyətinin səkkiz üzvü planlaşdırıb, onlardan tapança, ov tüfəngi, güllələkeçirməz jiletlər və ratsiya aşkarlanıb.

Etiraz aksiyasına liderləri 2020-ci ildən Paşinyanla fəal mübarizə aparan bir neçə siyasi təşkilat rəhbərlik edir. Məsələn, onların arasında İrəvan Qanunvericilik Məclisinə keçirilən son seçkilərdə baş nazirin istefasına nail olmaq və Qarabağdakı separatçı ermənilərə daha fəal kömək etmək üçün öz səsinə səs verməyə çağıran ”Ana Ermənistan” bloku da var (15,45% səs toplayıb).

Bundan başqa, Ermənistanın keçmiş prezidentləri Robert Köçəryan və Serj Sarkisyanın tərəfdarları da var. Artıq adı çəkilən Levonu bəziləri müxalifətin əzəməti, qəzəbi adlandırırlar.

Lakin etirazçıları yalnız bu siyasi qüvvələrə aid etmək olmaz, palitrası daha rəngarəngdir, çünki cəmiyyətin bütün təbəqələrində ölkə rəhbərliyinə qarşı çoxlu narazılıqlar toplanıb. Buna baxmayaraq, Paşinyan rəqiblərini Rusiya ilə əlaqələrdə və İrəvana qarşı informasiya müharibəsində iştirakda ittiham etməyə çalışır.

İrəvan sakini Gevorqun sözlərinə görə, 2020-2021-ci illərdə etirazlar daha ciddi olub, belə ki, çoxları hesab edirdi ki, dövlətin başında başqa adam olsa, hər şey dəyişə bilər. İndi çoxlarına aydın oldu ki, problem daha dərindir. Bundan əlavə, müxalifət vəziyyəti düzəltmək üçün heç bir fəaliyyət proqramı təklif etmir, onun əsas vəzifəsi hakimiyyəti ələ keçirməkdir. ”Bəzən şəhərdə qarşıdurma baş verir, lakin ümumilikdə əsas fəaliyyət kütləvi mitinqlərə düşür. Oradakı insanlar çox müxtəlifdir, bir-biri ilə ünsiyyət qurmayan kiçik qruplara bölünürlər. Onların hamısını yalnız Paşinyana olan nifrətləri birləşdirir, ancaq bu, yetərli deyil və tədricən onlar dağılırlar”, - deyə o, bildirib.

Gevorqun sözlərinə görə, Paşinyan bütün rəqiblərini Rusiya tərəfdarları ilə eyniləşdirməyə çalışır. Baş nazirin sözlərinə əsasən belə bir təəssürat yaranır ki, ya Moskva Ermənistanı öz vilayətinə çevirmək istəyir, ya da müxalifət buna nail olmağa çalışır. Lakin bu bəyanat Paşinyanın ”qərblilər” arasında populyarlığını artırmayıb. İstəyəcəklər ki, o, KTMT-dən çıxıb NATO-ya daxil olmağa çalışsın və bunsuz da onların nöqteyi-nəzərindən baş nazir sadəcə sözlə oynayır, iki kresloda oturmağa çalışır.

”Etirazlar kifayət qədər kütləvidir, axşam aksiyalarında 20-25 minə qədər insan iştirak edə bilər. Bu, iki-üç il əvvəlki pik dəyərlərdən təxminən iki dəfə çoxdur. Doğrudur, etirazçıların əhəmiyyətli hissəsi Qarabağdan olan gənclərdir”, - Qafqaz İnstitutunun elmi işçisi Qrant Mikaelyan bildirib. Onun fikrincə, bu onunla bağlıdır ki, 2020-ci ildə itkilər ərazi, siyasi və statuslu idi, lakin bunu reallaşdırmaq üçün bir çox ermənilərdə olmayan dövlət təfəkkürü olmalı idi. İndi isə sadə insanlar əziyyət çəkib. Əgər 2020-ci ildə Qarabağdakı erməni sakinlərinin 80%-i öz evlərində yaşayırdısa, indi biz əhalinin rayondan kütləvi şəkildə, həm də könüllü köçünün şahidi oluruq: ”Bu dəfə müxalifətin Paşinyanı devirmək şansı 2020-ci ilə nisbətən daha yüksəkdir, lakin hələ də 50%-dən çox azdır. Hərəkat çox zəif təşkil olunub və hakimiyyət buna fəal şəkildə qarşı çıxır. Polis küçələrdə etirazçıları döyərək xaosa səbəb olur. Hətta binaları ələ keçirmək cəhdləri olarsa, atışma təhlükəsi də var idi”.

Politoloq qeyd edir ki, Qarabağda antiterror tədbirləri başlamazdan əvvəl Paşinyanın reytinqi 30% idisə, indi təxminən 10-15% təşkil edir. Özünə münasibətini birtəhər yaxşılaşdırmaq üçün o, baş verənlərə görə məsuliyyəti Rusiyanın üzərinə atmağa çalışır, çünki buna görə sələflərini günahlandırmaq artıq mümkün olmayacaq.

Strateji Tədqiqatlar və Təşəbbüslər üzrə Analitik Mərkəzin (ACSSI) rəhbəri Hayk Xalatyan da hesab edir ki, Paşinyanın reytinqi ciddi şəkildə aşağı düşüb, lakin o, bunu təhlükəsizlik blokuna nəzarəti ilə kompensasiya edir. Bu baxımdan ekspert hesab edir ki, müxalifət hakimiyyəti dəyişmək üçün polislə küçə toqquşmalarına getməli olacaq. ”Hələ ki, amansız həbslərə baxmayaraq, aksiyalarda heç də az adam yoxdur. Eyni zamanda, iqtidar partiyasından olan deputatlar da cəmiyyətin onlara qarşı mənfi münasibəti göz qabağında olduğundan küçəyə çıxmaqdan qorxurlar. Onların ictimaiyyət qarşısında təhqir edilməsi, hətta təcavüzə məruz qalması halları olub. Amma müxalifət liderləri fəaliyyət proqramı təklif etməsələr və sadəcə İrəvanda gəzsələr, etirazlara maraq qaçılmaz olaraq azalacaq”, - Xalatyan deyib.

Ümumiyyətlə, mövcud hakimiyyətin əleyhdarlarının nail olmağa çalışdıqları əsas məsələ Qarabağdakı vəziyyətə görə məsuliyyət daşıyanların cəzalandırılmasıdır. Eyni zamanda insanlar hesab edirlər ki, hakimiyyət Ermənistanın təhlükəsizliyini təmin etmək iqtidarında deyil. Öz növbəsində, Azərbaycanla sülh bağlayacağına söz verən və ”Zəngəzur dəhlizi” uğrunda döyüşlərin təhlükəsi barədə xəbərdarlıq edən Paşinyan öz hərəkətləri ilə düzgün qurulmamış xarici siyasəti nəzərə alaraq, Bakının müdaxiləsi riskini daha da artırır. Paşinyan hakimiyyəti Rusiya ilə münasibətləri korlayıb və və artıq Ermənistan ordusunun döyüş qabiliyyətini artıra bilmir.

Qarabağdakı ermənilər Azərbaycan tərəfindən bütün humanitar və sosial problemlərin həll olunacağı barədə təminat almalarına rəğmən Ermənistana köçməkdə davam edirlər. Bunun ən böyük və əsas səbəbi Ermənistandakı millətçi ermənilərin təbliğatıdır. Onlar ciddi-cəhdlə erməniləri Qarabağdan köçməyə çağırırlar. Bununla da Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaq niyyətlərini gizlətmirlər. Bazar ertəsi isə Naxçıvan Muxtar Respublikasında Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Dağlıq Qarabağ ətrafındakı vəziyyəti müzakirə ediblər.

**V.VƏLİYEV**

# Metroda sıxlıqla bağlı hansı tədbirlər görülür?

*QURUM RƏSMİSİ AÇIQLADI*



**"Gözlənildiyi kimi yeni tədris ilinin başlaması ilə metroda sıxlıq xüsusi qaydada artıb. Hal-hazırda monitorinqlərimiz davam edir". Bu sözləri SİA-nın sorğusuna cavab olaraq"Bakı Metropoliteni"nin mətbuat katibi Bəxtiyar Məmmədov deyib.**

Onun sözlərinə görə, yeni qrafik elan edilərkən 10-15 gün metropolitendə xüsusi monitorinqlər aparılır: "Bu, həm də sərnişin axınının sabitləşməsi dövrüdür. Yəni, bu müddətdə sərnişinlərin səmti müəyyən etməsi, metrodan istifadə vaxtının dəqiqləşdirilməsi ilə bağlı məsələlər tam həllini tapır. Daha sonra metropoliten sabit olaraq müəyyən mexanizmlər tətbiq edə bilir. Bu mexanizmlər müxtəlif spektrli ola bilər. Hələlik operativ qaydada müşahidə və monitorinqlər davam etdirilir".

Qurum rəsmisi onu da qeyd edib ki, yaxın günlərdə görülə biləcək tədbirlərlə bağlı məlumat veriləcək: "Xüsusi olaraq qeyd edim ki, monitorinqlər kimi görülən tədbirlər də operativ qaydada tətbiq olunur. Məsələn, günorta saatlarında ehtiyat qatarlarının buraxılması, sərnişin axınının öyrənilməsi, platformalarda əlahiddə sıxlığın yaranmaması, ifrat sıxlığa qarşı qabaqlayıcı tədbirlərin görülməsi öz həllini tapır. Ümumilikdə hər hansı bir yenilik tətbiq olunarsa, təbii ki ictimaiyyəti bununla bağlı məlumatlandıracağıq".

***Ləman Sərraf***

FELYETON

# Siz...



**Vallah, sizdən söhbət düşəndə Cəlil Məmmədquluzadənin "Biz" felyetonunu xatırlayıram və bu əsnada da sual verirəm: siz kimsiniz? Və öz-özümə də cavab verirəm ki, siz heç kimsiniz.**

Yox, əgər mənim bu sualcavabımdan acıqlanıb, hirslənib, alovlanıb, qəzəblənib partlasanız, cümlənizlə üzərimə üsyana gəlsəniz, əsla unutmayın ki, sizə bundan fərqli suallarım olar. Dəxi siz bu suallara cavab verməyəndə, məcburən yenə də cavabını özüm vermiş olaram.

Siz kimsiniz? Müxalifətsiniz. Bəs kimə və nəyə müxalifsiniz? Siz xalqa müxalifsiniz. Xalq sizi harada xatırlayır? Küçədə. Necə xatırlayır? Çığırmaqla, Milli Məclisdə bir-birinizlə tutaşmaqla, dara düşəndə bir-birinizi didib-parçalamaqla... Nə cür yadda qalmısınız? Qrand hesabına ağa qara, haqqa nahaqq deyən.

Siz kimsiniz? O yerdə ki, xalq üçün lazımlı işlər görülür, tezcə o işi tərsinə çevirmək istəyində olanlar. Lakin gücünüz çatırmı? Çatmır. Gücünüz danışmağa çatır ki, buna da bizdə "dil pəhləvanı" deyirlər. Lakin aşığın sözü qurtaranda "neynim, neynim" dediyi kimi, axı sizin də sözünüz 90-larda qurtarıb, 30 ildir "neynim, neynim", deyirsiniz, "neynim" sizə kömək olurmu? Olmur.

Siz kimsiniz? Bu aralar Rusiyanı Azərbaycandan çıxarmağın vacibliyindən dəm vuran yığnaq. Maraqlıdır, axı həmin bu Rusiya bir vaxtlar dostunuz idi, torpaqları əlinizdən alıb verdi Ermənistana. Sizə də hakimiyyət sözü verdi, lakin ara qarışdı, mənsəb itdi. Rusiya da oldu sizə düşmən.

Siz kimsiniz? Hakimiyyət üçün dəridən-qabıqdan çıxan, başqa heç nə. Uzun illərdir ki, hakimiyyət sizin səhvlərinizi düzəltməklə məşğuldur. O, guya ki, halına yandığınız şəhid, qazi, veteranlarımız da sizin 90-lardakı səhvinizin qurbanlarıdır.

Siz kimsiniz? Bu necə suverenlikdir ki, Azərbaycan vətəndaşı öz dədə-baba torpağına gedə bilmir, deyən. Hansı ki, sonuncu dəfə elə öz dədə-baba torpaqlarında minaya düşüb ölənlərimizin hələ 7 günü tamam olmayıb.

Siz kimsiniz? Azərbaycan tərəfi Ermənistana gedən ermənilərə benzin verir, deyən. Bir sərkərdədən çəkdiyiniz misalınız da var: "Qaçan düşmənin yolunun üstündə qızıldan körpü tikmək lazımdır". Sonra da "qaçan düşmənin də, daha Yerevana qiyam üçün gedənlərin deyil",- deyirsiniz. Bilə-bilə ki, Azərbaycan tərəfi qaçanlara deyil, orada yaşayanlara humanitar yardım edir, lakin deyirsiniz də. Çünki danışmaqdan başqa əməliniz yoxdur. Bir də ki, gedənin gedib Yerevanda qiyam etməsi sizi niyə bu qədər narahat edir? Yoxsa... Burada deyiblər bax, heç hənanın yeridir?..

Siz kimsiniz? Əli, Məmməd, Gültəkin, İlham, Natiq, Tofiq, nə bilim daha kimlər, kimlər... Bildiyim odur ki, bir xalq olaraq məhz müxalifimizin siz olmağınız bizim ən yazıq tərəfimizdir. Qonşu belə, müxalif belə...

***Mətanət Məmmədova***

# "Dəmir pulların yenilənməsi pul dövriyyəsinin stabil fəaliyyəti baxımından vacibdir"

*DEPUTAT MÜNASİBƏT BİLDİRDİ*

**"Dəmir pullar və kağız əskinasların mütəmadi olaraq yenilənməsi həyata keçirilir. Bu yenilənmə bütövlükdə pul dövriyyəsinin daha stabil fəaliyyəti baxımından vacibdir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Vüqar Bayramov deyib.**



Onun sözlərinə görə, yeni qəpiklərin dövriyyəyə buraxılması da məhz pul dövriyyəsinin yenilənməsi məqsədini daşıyır: "Biz təklif edirik ki, istifadə olunan yeni qəpik pulların dövriyyəyə buraxılması ilə yanaşı, həm də yeni kağız əskinasların dövriyyəyə buraxılması daha məqsədə uyğun olardı. Bir sıra ölkələrdə 1 və 5 ilə yanaşı, 2 və 3 nömrəli əskinaslar da mövcuddur. Azərbaycanda da bu cür kiçik nömrəli əskinasların dövriyyəyə buraxılması yaxşı olardı".

***Səbinə Hüseynli***



İLHAM

# Politoloqlar var ki, özlərini Nostradamus kimi aparırlar

***Müasir dünyamız bir sıra yeniliklərlə bəşəri varlığı təəccübləndirməkdədir. Kimisi bu yeniliklərdən yararlanır və yaşam tərzini ona uyğun qurur, eləsi də var ki, kənarda dayanıb, acı təəssüf hissi ilə baş verənləri izləyir. Bir qism insan var ki, bir növ ortadadılar. Yəni, nə müasir dövrlə ayaqlaşa bilirlər, nə də kənara çəkilib işi bacaranlara işlərini görməyə imkan vermirlər. Xüsusilə də, bu kimi kəm-kəsir zehni fəaliyyət sahəsində özünü daha qabarıq göstərməkdədir. Bir də görürsən ki, dünən hərbçi olan bu gün siyasi-hərbi ekspert kimi mətbuata açıqlamalar verir, sosial şəbəkələrdə proqnozlarla çıxışlar edir. Ümumtəhsil məktəblərdə şagirdlərə düz-əməlli dərs keçə bilməyənlər var ki, TV-lərin ulduzuna çevrilib, politoloq kimi siyasi, hərbi proseslər barədə şərhlərini verirlər. Son vaxtlar isə politoloqların sayı yağışdan sonra çıxan göbələk kimi sayları artıb. Kimi dindirsən deyir ki, "mən politoloqam" növbəti parlament seçkilərində də namizəliyimi irəli sürüb deputat olacam. Eləsi də var ki, mətbuata yenicə çıxıb, amma "həmkarları"nı bəyənmir. Biri var özünü hərbi ekspert kimi təqdim edir.***

Bəzən fikirlərini söyüşlə, təhqirlə ifadə edir. O günləri də bir deputatı hədəfə alıb, onu "sən kişi deyilsən", "sən eşşəksən" və bu kimi söyüşləri ilə təhqir etdi. Ancaq bu "sayseçmə politoloqlar" anlamırlar ki, ictimaiyyətin siyasi biliklərinin və intellektual bacarıqlarının artırılmasında politoloq müstəsna imkanlara malikdirlər. Politologiya siyasətin elmi tədqiqidir. Bir növ tədqiqatçıdır. Politoloqların proqnozları, təhlilləri cəmiyyətlərin inkişafına töhfə verməklə yanaşı, insanların maarifləndirilməsinə xidmət etməlidir. Analitiklərin gəldikləri qənaətə görə, siyasi elmdə bir neçə nəzəriyyə mövcuddur ki, onlardan da ən aktualı təsviri səviyyə, izahlı səviyyə, proqnozlaşdırıcı səviyyə və nəzəri səviyyədir. Özlərini cəmiyyətə politoloq kimi təqdim etməyə çalışanlar bu prinsipləri və qaydaları mənimsəmədən hadisələrə və proseslərin gedişi barədə təhlillərini və proqnozlarını irəli sürmələri yanlışdır. Təəssüf ki, politoloq qismində özlərini təqdim edənlər ağına-bozuna baxmadan hadisələrin gedişi haqqında cəfəng, heç bir informasiya yükü olmayan fikirlər səsləndirirlər. Bəzən şərhlər verərkən elə ifadələr seçirlər ki, adamın ayağının altından yer qaçır. Nədi-nədi TV-lərdə dostu, tanışı çalışır, saytlara çıxış imkanları var. Belə demək mümkünsə, politogiya sahəsində at izi, it izinə qarışıb. Hərə ağılına və ağzına gələni danışır. Dediklərinin fərqinə varan, məsuliyyətini anlayan da yoxdur. Dərk etmirlər ki, açıqladıqları yanlış fikir cəmiyyətdə çaşqınlıq yarada bilər.

O gün internet tv-lərin birinə açıqlama verən bir politoloq deyir ki, vaxtaşırı olaraq Xankəndidəki erməni əsilli şəxslərlə əlaqə saxlayır və gəldiyi qənaət ondan ibarətdir ki, Azərbaycan ordusu Xankəndi şəhərinə girməyəcək. Başqa bir "politoloq" isə and-aman edir ki, bəs ermənilər Qarabağda qalmayacaqlar, hamısı qaçacaqlar. Birincisi, adını yazmaqla alçaltmaq istəmədiyimiz "politoloq" anlamalıdır ki, ermənilərin Qarabağdan Ermənistana qaçacaqlarını hər kəs bilir, ən azı sosial şəbəkələrdə böyük erməni köçünü izləyirlər. İkincisi isə, Xankəndidə bəlli sayda ermənin qalacağı şübhəsizdir, yəni heç də hamısı getməyəcək. Lakin abır və həyaları olsa idi, bu torpaqları tərk edərdilər. Fərid Şefiyev adlı şəxs isə tv aparıcısına özünü məlumatlı şəxs kimi təqdim etməyə çalışaraq iddia edirdi ki, Azərbaycan polisi 2025-ci ilə qədər Xankəndi şəhərinə daxil olmayacaq. Deyən və başa salan lazımdır ki, haradan bilirsən? Sən dövlətin ali rəhbərliyində çalışırsan, yoxsa erməni əsilli şəxslərlə əlaqələrin qurulması üzrə danışıqların iştirakçısısan? Bəlkə Mişel Nostradamusun ruhu bədəninə girib, öncəgörən olmusan? Hər şeyin sərhədi olduğu kimi, xəbərin verilməsində və proqnozların irəli sürülməsində də sərhəd olmalıdır. Əks təqdirdə, cəmiyyətdə ziddiyyətli fikir formalaşar ki, bundan da məkrli xarici qüvvələr əleyhimizə istifadə edə bilərlər.

# Çoxalan dələduzluq, azalan insanlıq

Bir-birini aldadan kim, başqasının əmlakını mənimsəyən kim, 1 evi 2 adama satan kim...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

ARAŞDIRMA

***Dələduzluq aldatma məqsədi ilə qəsdən törədilən hərəkətdir. Dələduzluğun günümüzdə olduqca çox növü yayılaraq, daşınmaz əmlak, sənəd saxtakarlığı, virtual dələduzluq kimi çoxçeşidli cinayət əməlinə çevrilib.***



## Dələduzların içində kimlər yoxdur ki?

Məsələn, hüquq məsləhətləri verilən qrupların birində paylaşılan bir məlumatda deyilir: "Salam. Mən döşəməsi, pəncərəsi vurulan 100 kvadratlıq evin təmiri üçün 7000 AZN-ə usta danışmışam. Evin mətbəx, hamam-tualet, kombi, santexnik işləri bitmədi, dəhlizi təmir olunmadı, çünki usta işə gəlmədi. Mən zəng etdikdə "yol pulum yoxdur, pulun qalan hissəsini ver" dedi. Həmin vaxtadək ona 4500 AZN pul vermişəm və bildirmişəm ki, qalan məbləği də işi tam bitirənə qədər verəcəm. Razılaşmadım və pulun qalan 2500 manatını vermədim, daha işə gəlməməsini bildirdim. Bununla yanaşı dələduzluq edərək, bəzi əşyalarımı sataraq mənə maddi zərər də vurub. Hal-hazırda ona vermədiyim məbləğ üçün məni məhkəməyə verməklə təhdid edir. Vəkillərdən xahiş edirəm, bunun hüquq tərəfi nədir, nə ola bilər?"

Vəkillərin məsləhəti: "Siz gərək həmin şəxslə podrat müqaviləsi bağlayardınız. Əgər işi tam görməyibsə, siz onu məhkəməyə verib pulu tələb edə bilərsiz. O da məhkəməyə müraciət edə bilər, lakin işi zamanında təhvil vermədiyi üçün iddiası təmin edilməyəcək. Belə vəziyyətlərdə tərəflər arasında müqavilə olanda zərərçəkənin iddiasının təmin olunma şansı daha çox olur".

Maraqlıdır ki, dələduzluq edən şəxslər arasında vəkil olduğunu iddia edənlər də olur. Məsələn, şikayətçinin yazdıqları: "Bir vəkil məni aldadıb pul alıb, artıq 7-ci aya keçib heç bir iş görməyib, əlimdə müqavilə var və müqavilədə verdiyim pulun məbləği, eləcə də vəkilin imzası, möhürü var. Mən pulu necə geri ala bilərəm?"

Şikayətçinin təqdim etdiyi müqavilə, ümumiyyətlə, vəkil müqaviləsi deyildi. Problem barədə vəkillərin məsləhəti: "Nəzərinizə çatdırım ki, təqdim etdiyiniz müqavilə vəkil müqaviləsi deyil və həmin şəxs Vəkillər Kollegiyasının üzvü deyil. Bununla bağlı aidiyyəti hüquq-mühafizə orqanlarına müraciət edin. Bir daha nəzərinizə çatdırırıq ki, vəkillər əsasən vəkil bürolarında fəaliyyət göstərirlər. Bu qrupda bu barədə cox yazılıb. Ölkəmizdə fəaliyyət göstərən vəkillər barədə məlumatı barassociation.az saytından ala bilərsiniz".

## Bank dələduzluğu da çox yayılıb

Bəzən banklardan gələn zənglərdə sizin hər hansı bir tanışınızın kredit öhdəliyini yerinə yetirmədiyini, zaminlik edən şəxslərin öhdəliyi yerinə yetirməsi barədə xəbərdarlıq alanlar olur. Maraqlı burasıdır ki, şəxs ümumiyyətlə kimsəyə zamin durmayıb, adıçəkilən banka ümumiyyətlə getməyib. Bununla bağlı da olduqca çox şikayətlər var.

Məsələn: "Mənə mütəmadi bankdan zəng edirlər, +99410 ilə başlayan telefon kodu idi. Bir çox uzaq qohumun kredit götürdüyünü, məni zamin yazdığını, banka nömrəmi verdiyini deyir. Dediyi adamlar kredit götürdüyünü təsdiq edir, amma məni zamin kimi yazdırmadıqlarını da deyir, hətta yazdırsa belə bunun üçün məndən icazə alınmayıb, heç bir sənədə qol çəkməmişəm.









Davamlı zəng gəlir, "həmin şəxsə xəbərdarlıq edin ödəsin, ya da özünüz ödəyin, məhkəməyə veriləcəksiniz, siz də gəlməli olacaqsız" və s. deyir zəng edən şəxs. Danışıb söndürür, geri zəng edəndə də davamlı məşğul olur nömrə, ona görə əlaqə saxlamaq olmur. Bu nə dərəcədə doğrudur, belə bir şey mümkündür ki, icazəm olmadan mənə zəng etsinlər və ya zamin kimi qeyd etsinlər?"

Zərərçəkmişə verilən hüquqi məsləhət: "Hər hansısa sənədə qol çəkmədiyiniz müddətdə heç nəyə görə məsuliyyət daşımırsınız. Narahatlığa heç bir əsas yoxdur."

## Sosial şəbəkənin dələduzları

Qeyd edək ki, sosial şəbəkələr həyatımıza bu qədər pərçimləndikdən sonra dələduzluq da onlayn müstəviyə keçdi. İnsanların mərhəmətindən, inamından və etibarından sui-istifadə edən fırıldaqçıların sayı getdikcə artır. Qanunvericiliyə əsasən, dələduzluq cinayət əməli hesab olunduğu halda bəzi vəziyyətlərdə edilən şikayətlər cavabsız qalır.

Cinayət Məcəlləsinin 178-ci maddəsində göstərilir ki, aldatma və etibardan sui-istifadə etməklə özgə əmlakını mənimsəmə dələduzluq faktıdır. 500 manatdan 5 min manatadək və daha yüksək məbləğdə olan dələduzluq faktları cinayət işinin açılması üçün əsasdır. 500 manatadək olan dələduzluq hallarında isə cinayət işi başladılmır. Bu, xırda talama hesab olunur və inzibati tərkib yaradır. Zərərçəkmiş şəxslər bununla bağlı yalnız polis orqanlarına və məhkəməyə müraciət edə bilərlər.

Məsələ burasındadır ki, bir çox hallarda dələduzluğu sübut etmək də olmur. Çünki tərəflər arasında müqavilə və ya hər hansı bir əqd olmur. Bəzən də kiçik dələduzluq hallarında polisin tələbi ilə dəymiş ziyan ödənildiyi üçün iş məhkəməyə getmir. Lakin bir problem də var ki, kiçik dələduzluq hallarında polis heç də həmişə məsələni nəzarətə götürmür.

Dələduzluq niyyətləri daha çox işə düzəltmək, asan yollarla gəlir əldə etmək, biznes fəaliyyəti, əmlakın birdən çox adama satılması və bir sıra digər adlar altında gizlənir. Sosial şəbəkə fırıldaqçılığı arasında ən çox yayılan növlərdən biri bank kartları ilə bağlıdır. Dələduzlar müxtəlif insanlara bank adından zəng edir və ya mesaj yazır, kartın və hesabdakı məbləğin təhlükədə olduğunu bildirir, habelə sosial şəbəkələrdə yardım kampaniyası üçün paylaşılan kartların təhlükəsizlik kodunu əldə edir və talayır. Bu tələyə, əsasən, yaşlı nəsil düşür, çünki texnoloji yeniliklərdən, təhlükəsizlik tədbirlərindən, virtual fəaliyyət göstərən dələduzlardan xəbərsiz olurlar. Bir çox yaşlı insan bank hesabı ilə birlikdə təhlükəsizlik kodunu, habelə kartın şifrəsini yad adamlara verir.

## Dələduzluqla bağlı qanun yumşaqdır?

Azərbaycan qanunvericiliyinə əsasən, cinayət işi əsasında cəzalandırmanın tətbiqi üçün minimum 500 manat məbləğində dələduzluq faktı olmalıdır. Ziyan 500 manatdan az olduqda şəxs inzibati məsuliyyətə cəlb olunur. Daha az məbləğli dələduzluq halları üçün ciddi cəza mexanizmləri mövcud olmadığı üçün də dələduzlar bundan sui-istifadə edir.

Qanunvericilikdə inzibati həbslə bağlı olan inzibati tənbeh nəzərdə tutulub. İnzibati tənbehin tətbiqetmə müddətinin artırılması ilə bağlı müzakirələr aparılmağa ehtiyac var. Bir çox hüquqşünas xırda talama ilə bağlı inzibati xətanın maddi hüquq normasının sanksiyasının artırılmasını daha doğru olacağını hesab edir.

Qeyd edək ki, Cinayət Məcəlləsinin 178.1-ci maddəsinə əsasən, dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə - 1000 manatdan 2000 manatadək miqdarda cərimə və ya 360 saatdan 480 saatadək ictimai işlər və ya 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Bu məcəllədə nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranır.

Mülkiyyət əleyhinə digər cinayətlərdən fərqli olaraq dələduzluq cinayəti aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə törədilir və əmlakın sahibi olan şəxs öz əmlakını və ya ona olan hüququnu başqa şəxslərə yalan vədlərin təsiri altında könüllü surətdə verir. Yəni burada məcburetmə halı yoxdur, etibaretmə halı var və bundan sui-istifadə etmə halı mövcuddur. Buna görə də bu cinayətin törədilməsini sübut etmək, cinayətin subyektiv cəhətini- motivini müəyyən etmək olduqca çətindir.

Dələduzluq cinayətinə görə vurulmuş ziyanın məbləğindən, cinayətin, tək və ya qrup halında, ilk dəfə və ya təkrar törədilməsindən və s. hallardan asılı olaraq cərimə cəzasından tutmuş 7 ildən 12 ilədək müddətə azadlıqdan məhrum etmə cəzasına kimi müxtəlif cəzalar nəzərdə tutulub. Dələduzların qurbanına çevrilməmək üçün pul və əmlaklarınızla bağlı sövdələşmələr zamanı diqqətli olmağınız və peşəkar vəkillər ilə məsləhətləşməyiniz tövsiyə olunur.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
27 sentyabr
2023-cü il

# Gənclər niyə öz qismətini sosial şəbəkədə axtarır?

## EKSPERT MÜNASİBƏT BİLDİRDİ

”Sosial şəbəkələr həyatın müxtəlif sahələrinə olduğu kimi, gündəlik həyatımıza da təsir etməyə başlayıb. İnsanlar necə ki alternativ təhsil forması kimi sosial şəbəkələrdə öz biliklərini artırırlar, ictimai-siyasi proseslərə birbaşa reaksiya verirlərsə, eləcə də öz fərdi həyatlarında dostluq, sevgi, tanışlıq münasibətlərini də bu platformalar üzərindən qururlar”. Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.



Onun sözlərinə görə, dünyada olan sırf fərdi tanışlıq, özəl həyatın intim və məhrəm tərəflərini əhatələyən elektron saytların sayı heç kimi təəccübləndirmir: ”İnsanlar tanımadığı ölkələrdən belə canlı həyatda risk edib tanışlığa getmədikləri şəxslərlə smartfon arxasında rahat ünsiyyət qura bilirlər. Hətta sosial şəbəkələrdə tanış olub ömürlərini bir-birinə calayanların da sayı az deyil. Bu nikahların böyük bir hissəsi möhkəm ailə bağlarına çevrilir. Amma 25-30% real həyatda tanış olduqda virtual həyatda olduğu kimi münasibətləri alınmaya bilir. Bu zaman virtual nikahlar ayrılıqla müşahidə olunur. Amma ümumən götürdükdə gənclərimizin öz qismətlərini sosial şəbəkələrdə axtarmaqları normal qarşılanmalıdır. Çünki dünya özü də artıq virtuallaşır”.

Ekspert sözlərinə davam edərək bildirib ki, hazırda süni intellekt və robotlaşma prosesi gedir: ”Vaxt gələcək ki, gənclər nəinki canlı insanla, eyni zamanda, robotlarla sosial şəbəkələr üzərindən virtual dostluq və ya ailə münasibəti quracaqlar. Yaxşı və ya pis olduğunu mübahisə etmirik, amma bu, bir faktdır. Dünyanın bir çox ölkəsindən robotlarla, kuklalarla evlənənlər barədə informasiyaların şahidi oluruq. İstər real, istərsə də virtual həyatda münasibət qurmaq istədiyiniz şəxslə birdən-birə səmimiləşmək olmaz. Fərdi məlumatlar, xüsusilə maliyyə imkanları barədə danışmaq, intim foto və videolar qəti göndərmək olmaz. Sizinlə uzun müddət əlaqə saxlayan və ciddi münasibət qurmaq istəyən şəxslər tələm-tələsik foto, video, kart nömrəsi və ya borca pul istəməz. Belə şəxslərdən uzaq durmaq, münasibətə son qoymaq lazımdır. Pandemiya dövründə virtual münasibətlər, hətta toyların önəmi və aktuallığı haqqında fikirlər səslənirdi. Həqiqətən də düşünürdük ki, bu gərəkli bir formatdır. Amma əgər qlobal bir hadisə baş verməyibsə, müharibə yoxdursa, insanlar real münasibətlər qurmağa çalışsınlar. Virtual olaraq tanış olduqda belə uzun müddətdən sonra ciddi münasibətə başlamaqları məqsədəuyğundur. Əks halda müəyyən problemlər yaşaya bilərlər. Amma inanıram ki, yaxın gələcəkdə virtual münasibətlərdə də sivil mədəniyyət formalaşacaq”.

**L.Sərraf**


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Turist axınına səbəb nədir?

”Dövlət Turizm Agentliyinin statistik açıqlamasında da yanvar-avqust aylarında Azərbaycana gələn əcnəbilərin sayının 1 milyonu keçdiyi qeyd olunub. Bu rəqəm əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə təxminən 37% daha çoxdur. Əslində, bu gözlənilən idi. Turizm ekspertləri də qeyd edirdilər ki, ötən ilə nisbətən 2023-cü ildə turizmdə daha çox aktivlik hiss olunacaq. Bildiyiniz kimi, pandemiyadan sonra bir çox məhdudiyyətlər artıq aradan qalxır. Bununla da dünyadakı səyahətlərin sayı artmaqdadır. Bir sıra regionlar var idi ki, nəinki quru sərhədlərdə, hətta hava nəqliyyatında məhdudiyyətlər mövcuddur”. Bu sözləri SİA-ya açıqlamasında turizm üzrə ekspert Ceyhun Aşurov deyib.



Onun sözlərinə görə, baxmayaraq ki, Azərbaycanın quru sərhədləri bağlıdır, amma turistlərin sayında artım müşahidə edilir: ”Ümumdünya Turizm Təşkilatının hesabatlarında da qeyd olunurdu ki, bu il pandemiyadan öncəki dövrlə müqayisədə turizmin təxminən 80%-ə qədər bərpa olunacağı gözlənilirdi. Ötən il Azərbaycanda turizm bərpası 50% oldu. 2023-cü ildə bu göstəricinin daha çox olacağı gözlənilir. Əslində, Azərbaycanda turist potensialı daha çoxdur. Dövlət Turizm Agentliyinin açıqlamalarında da qeyd olunur ki, 2026-cı ilə qədər turist sayı daha da artacaq və bu yöndə müxtəlif işlər görülür”.

Ekspert sözlərinə davam edərək bildirib ki, istər prosedur qaydalarının asanlaşması ilə, istər infrastruktur baxımından turistlərin qəbuluna hazırlıqla bağlı, istərsə də uçuş nöqtələri, beynəlxalq hava limanlarının fəaliyyəti ilə bağlı müəyyən işlər aparılır: ”Düşünürəm ki, bunlar gələcəkdə öz bəhrəsini verəcək və Azərbaycan yaxın bir neçə ildə indikindən qat-qat çox əcnəbi turist qəbulunu həyata keçirəcəkdir. Nəzərə alsaq ki, Qarabağla bağlı müxtəlif layihələr həyata keçirilir. Həmin ərazidə bir neçə hava limanı fəaliyyət göstərəcək. Qarabağın tamamilə təhlükəsiz məkan olduğu dövrdən başlayaraq istər daxili, istər xarici turist axınını müşahidə edəcəyik”.

**Ləman**

# *Ciddi XƏBƏRDARLIQ: Həkim məsləhəti olmadan dərman qəbul etməyin!*



“İnsanların əksəriyyəti öz təzyiqlərini və ürək döyüntülərini müasir dövrün elektron aparatları və smart saatlar vasitəsi ilə müəyyən edirlər”. Bunu SİA-ya açıqlamasında onkoloq-cərrah İbrahim Əsədli deyib.Onun sözlərinə görə, müəyyən texniki vasitələr və dövrün elektron aparatları insanların həyatını rahatlaşdırır və asanlaşdırır:

”Amma hər bir işdə olduğu kimi, insan sağlamlığının qorunması həkim məsləhəti və nəzarəti ilə olanda daha yaxşı olur. Yəni, onlar öz təzyiqlərini ölcə bilərlər, amma hər hansı bir dərmanı həkim məsləhəti olmadan qəbul etmək insan həyatına və sağlamlığına zərər vura bilər. Belə ki, onlar özbaşına özlərini müalicə edə bilməzlər. Çünki müalicə etmək üçün həkim savadı olmalıdır ki, qəbul etdiyi dərmanın hansı orqana necə təsiri var. Bu baxımdan da, yaxşı olar ki, insanlar həkim məsləhəti olmadan hər hansı bir dərman qəbul etməsinlər. Əks halda bu, yaxşı nəticələrə gətirib çıxarmayacaqdır”.

**Gülyana**

# Bu il avtobuslar 1565 qəza törədiblər

Cari ilin 8 ayı ərzində respublika ərazisində avtobus və mikroavtobusların iştirakı ilə 1565 yol-nəqliyyat hadisəsi qeydə alınıb. SİA xəbər verir ki, bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin yaydığı məlumatda deyilir. Bildirilib ki, nəticədə avtobus sürücülərinin təqsiri ucbatından 12 nəfər hayatını itirib, 23 nəfər isə xəsarət alıb.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**